# Ukrayna ordusu irəliləyir

## Baxmutun 20 kvadrat kilometrini azad edilib



**Ukrayna Silahlı Qüvvələri Rusiyanın işğalı altındakı Donetsk vilayətinin Baxmut şəhərinin 20 kvadrat kilometrini azad edib.**

"Report" Ukrayna KİV-inə istinadən xəbər verir ki, bu barədə ölkənin müdafiə nazirinin müavini Anna Malyar deyib.

Onun sözlərinə görə, Rusiya ordusu şəhərin daxilində irəliləməyə davam edir: "Şəhər toplarla yerlə-yeksan edilir".

Qeyd edək ki, Ukrayna Silahlı Qüvvələrinin daha əvvəl Baxmutda əks-hücum əməliyyatına başladığı bildirilmişdi.

*Xatırladaq ki, 8 aydan çoxdur Baxmut şəhərində gərgin döyüşlər gedir.*



# Türkiyə Ordusunun 3 hərbçisi şəhid olub

**Türkiyə Silahlı Qüvvələrinin 3 hərbi qulluqçusu şəhid olub.**

Türkiyə KİV xəbər verir ki, onlar Şırnak bölgəsində terrorçularla toqquşma nəticəsində həlak olublar. Məlumata görə, daha 2 hərbi qulluqçu yaralanıb.

Atışma nəticəsində 3 terrorçu məhv edilib.


№ 84 (5845) 2023-cü il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 17 may 2023-cü il (çərşənbə)




# Uşaqların müdafiəsi idarəsi yaradılıb

## Şagirdlər daha təhlükəsiz şəraitdə təhsil alacaqlar

**"Təhsil olan yerdə təhsildən yayınma hallarının olması gözləniləndir. Əsas məsələ bu kimi halların qarşısının alınması istiqamətində aidiyyəti qurumların birgə çalışmasıdır".**

Bunu elm və təhsil naziri Emin Əmrullayev keçirdiyi brifinqdə deyib.

Nazir bildirib ki, Nazirlər Kabinetinin müvafiq qərarı ilə artıq uşaqların müdafiəsi idarəsi də yaradılıb: "İdarənin fəaliyyətinin qurulması üçün işlər görülür. İdarə bu kimi hallarla bağlı müvafiq qurumlarla birgə işləyəcək. Beləliklə, şagirdlərin daha təhlükəsiz şəraitdə təhsil alması üçün şərait yaratmış olacayıq".



# Heydər Əliyevin bütün ideyaları həyata keçib

## Milli Məclisin xüsusi iclasında 228 xarici nümayəndə iştirak edib

**Dünən Milli Məclisin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş xüsusi iclası keçirilib.**

İclasda 30-a yaxın xarici ölkənin parlamentinin, o cümlədən Ərəb Parlamenti, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk PA və Parlamentlərarası İttifaqın nümayəndə heyətlərinin üzvləri iştirak ediblər. Ümumilikdə iclasda 228 xarici nümayəndə iştirak edib.

(səh.4)

# Naxçıvan Ali Məclisinin deputatlarının maaşı artırılıb



**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının maaşları artırılıb.**

Bu, altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasının gündəliyində duran "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının qanununda dəyişiklik edilməsi məsələsində öz həllini tapıb.

Əvvəllər deputatlara 25 faiz vergisiz cari xərclər ödənilirdisə, artıq o xərclər ləğv olunub və vergilər də daxil olmaqla, deputatların əmək haqqı 950 manat müəyyən edilib. Buna qədər deputatların maaşı 750 manat olub.

# Millətçilik yüksəldi

## Dünya mediası Türkiyə seçkilərinin ikinci turuna dair proqnozlarını verib




**Türkiyədə mayın 14-də keçirilən prezident və parlament seçkiləri dünya mediasının da əsas gündəminə çevrilib. Nüfuzlu media qurumları Türkiyədəki seçkilərin nəticələrini, xüsusən ikinci tur məsələsini manşetlərinə daşıyıblar.**

İngiltərənin "Financial Times" qəzeti "Türkiyədə seçkinin ikinci tura keçməsi ilə bağlı üstünlük Ərdoğandadır" başlığı ilə çıxıb. Qəzet yazıb ki, "Əsas rəqibini asanlıqla məğlub edərək ikinci tura çıxan Türkiyənin təcrübəli lideri Rəcəb Tayyib Ərdoğan, deyəsən, hakimiyyətini üçüncü onilliyə uzatmaq yolundadır".

"CNN International" telekanalı "Türkiyə müxalifəti ikinci turda Ərdoğanla sərt mübarizə aparacaq" başlığına üstünlük verib. CNN xəbərlərində analitiklər seçkidə üçüncü olan Sinan Oğanın ultra-millətçi seçicilərinin ikinci turda Ərdoğana üstünlük verəcəyini proqnozlaşdırıblar.

(səh.3)

# Ermənistana işləyənlər ifşa olundu

**"DTX-nin sadəcə Azərbaycanda deyil, üçüncü ölkədə Azərbaycan əleyhinə fəaliyyət göstərənləri zərərsizləşdirməsi çox önəmlidir"**







**Üçüncü ölkə ərazisində məskunlaşaraq Ermənistan xüsusi xidmət orqanlarının tapşırıqlarını həyata keçirən 1980-ci il təvəllüdlü Rəşad Əhmədov adlı şəxs cinayət məsuliyyətinə cəlb olunub.**

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) məlumatında qeyd olunub ki, Rəşad Əhmədov maddi maraq müqabilində məxfi əməkdaşlığa cəlb olunmaqla adıçəkilən ölkənin xüsusi xidmət orqanlarının Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti zərərinə verdiyi tapşırıqları yerinə yetirib. Digər vətəndaşları da cəlb edərək videomateriallar hazırlayıb.

(səh.3)



# Şikayətə baxılıb

## Ana və iki azyaşlı övladını öldürən ömürlük məhkumla bağlı qərar verilib

**Ana və iki azyaşlı övladını qətlə yetirməkdə təqsirli bilinərək ömürlük məhkum edilmiş Əhəd Əliyevlə bağlı hökmdən verilmiş şikayətə baxılıb.**

APA xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsində hakim Fərid Əyyubovun sədrliyi ilə baxılan iş üzrə qərar elan olunub.

Qərara əsasən, Əhəd Əliyevin şikayəti əsassız sayılaraq rədd olunub, birinci instansiya məhkəməsinin hökmü qüvvədə saxlanılıb.

*Xatırladaq ki, hadisə ötən ilin fevral ayında paytaxtın Nizami rayonunda qeydə alınıb.*

(səh.7)

# Xocalıdan eksklüziv görüntülər

## "Ərazimizdə 10 minə qədər erməni hərbçisi var"




**"Azərbaycan tərəfinin hesablamalarına görə, ərazimizdə 10 minə qədər erməni hərbçisi var, bu isə Üçtərəfli Bəyanatın müddəalarının kobud şəkildə pozulmasıdır".**

Bu barədə "Caliber"in "YouTube" kanalında yayımlanan süjetdə məlumat verilir. Bildirilir ki, Azərbaycan tərəfi Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinin, tərkibində Ermənistan vətəndaşlarının da olduğu hərbiləşdirilmiş dəstələrlə birlikdə Azərbaycanın Qarabağ iqtisadi rayonunun ərazisində qeyri-qanuni qalmaqda davam etməsi ilə bağlı dəfələrlə bəyanat verib. "Redaksiyamıza daxil olan və Ermənistan hərbçilərinin Xocalıda hərbi poliqonda döyüş atışları həyata keçirdiyini təsdiqləyən yeni görüntüləri abunəçilərin diqqətinə təqdim edirik", - deyə kanaldan bildirilib.

# Vəfat edən olmayıb

## Daha 19 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 19 yeni yoluxma faktı qeydə alınıb, 24 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 831 678 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 821 324 nəfər müalicə olunaraq sağalıb, 10 268 nəfər vəfat edib, aktiv xəstə sayı 86 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 396, hazırkı dövrədək isə 7 606 257 test aparılıb.*



# Dərslərin sentyabrın 1-dən başlaması daha uyğun olardı

Emin Əmrullayev: "Tədris müddəti nə qədər çox olsa, o qədər yaxşıdır"

(səh.2)



# Yaxın qohumları Azərbaycan vətəndaşı olanlara daimi yaşamaq icazəsi verilib

Bu dəyişiklik xarici vətəndaşlığı olan mütəxəssislərin ölkəyə cəlb olunmasına da kömək edəcək

(səh.2)



Dövlət başçısı ilə görüşdən şərəf hissi duyduğunu bildirən Əhməd Əs-Səfadi İordaniya Kralı II Abdullah ibn Al Hüseynin salamlarını dövlət başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniya Kralına çatdırmağı xahiş edib.

Qonaq vurğulayıb ki, Azərbaycanla İordaniya arasında dostluq və tərəfdaşlıq münasibətlərinin əsasının qoyulmasında dünya səviyyəli şəxsiyyətlər Heydər Əliyevin və İordaniya Kralı Hüseyn bin Talalın xüsusi rolları olub.

# Azərbaycanla İordaniya dost və qardaş ölkələrdir

## Prezident İlham Əliyev İordaniya Parlamentinin Nümayəndələr Palatasının sədrini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da İordaniya Haşimilər Krallığı Parlamentinin Nümayəndələr Palatasının sədri Əhməd Əs-Səfadini qəbul edib.**

Prezident İlham Əliyev Əhməd Əs-Səfadinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakından məmnunluğunu bildirib.

Dövlət başçısı qeyd edib ki, Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin fəaliyyəti nəticəsində ölkəmiz ən ağır dövrlərdə öz müstəqilliyini qoruyub saxlaya bilib və inkişaf yoluna qədəm qoyub.

İkitərəfli münasibətlərə toxunan dövlət başçısı Azərbaycanla İordaniyanın dost və qardaş ölkələr olduğunu və əlaqələrimizin müxtəlif istiqamətlər üzrə uğurla inkişaf etdiyini bildirib.

Əməkdaşlığımızın genişlənməsində qarşılıqlı səfərlərin önəmini qeyd edən Azərbaycan Prezidenti Əhməd Əs-Səfadinin ölkəmizə səfərinin parlamentlərarası əlaqələrin genişlənməsi işinə töhfə verəcəyinə və münasibətlərimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminliyini ifadə edib.

Əhməd Əs-Səfadi qeyd edib ki, Azərbaycan dövlətinin banisi Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində ölkəmiz böyük uğurlara və nailiyyətlərlə imza atıb. O vurğulayıb ki, Azərbaycan Avropanın ən qabaqcıl ölkələri ilə müqayisə oluna biləcək dərəcədə inkişaf yolundadır.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin və turizm sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları barədə fikir mübadiləsi aparılıb.

Sonda Əhməd Əs-Səfadi dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim edib.

# Yaxın qohumları Azərbaycan vətəndaşı olanlara daimi yaşamaq icazəsi verilib

## Bu dəyişiklik xarici vətəndaşlığı olan mütəxəssislərin ölkəyə cəlb olunmasına da kömək edəcək

**Atası, anası, əri (arvadı), övladı, bacısı və ya qardaşı Azərbaycan vətəndaşı olanlara daimi yaşamaq icazəsi verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı Miqrasiya Məcəlləsinə dəyişiklikləri təsdiqləyib.**



Məcəllənin 46-cı maddəsində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün tələb olunan sənədlər sadalanır. Yeni layihəyə əsasən, bu sənədlər siyahısına, həmçinin sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin və ya müraciətlə əlaqəli hüquqi şəxsin son 1 ildə təqdim etdiyi bəyannamə üzrə dövriyyəsinə dair vergi orqanından əldə edilmiş sənəd daxil edilib. Miqrasiya Məcəlləsinin 52.1-ci maddəsində əsasən, bu Məcəllənin 45.1.1-45.1.7-ci maddələrində nəzərdə tutulmuş əsaslarla müvafiq icazə əsasında son 2 il ərzində fasiləsiz olaraq Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (bu Məcəllənin 45.1.8-45.1.11-ci maddələrində nəzərdə tutulmuş əsaslarla Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə almış əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin ailə üzvü olduğuna görə müvəqqəti yaşamaq üçün icazə almış şəxslər istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq icazəsi almaq üçün vəsatət verə bilər. Qeyd olunan maddə təkmilləşdirilərək yeni redaksiyada verilib. Bundan başqa, qabaqcıl ölkələrin təcrübələrinə əsasən əcnəbilər yüksək ixtisaslı mütəxəssis və ya ərazisində olduğu ölkənin vətəndaşı ilə birinci dərəcəli (ata, ana, ər (arvad) və övlad) yaxın qohum olarsa, onlara həmin ölkə ərazisində daimi yaşamaq icazəsi almaq imkanı verilir. Bu baxımdan qohumluq münasibətlərinə görə daimi yaşamaq icazəsinin alınması üzrə qohumların dairəsinin məhdudlaşdırılması və yalnız müraciət edən şəxsin atası, anası, əri (arvadı), övladı, bacısı və ya qardaşı Azərbaycan Respublikasının vətəndaşı olduqda daimi yaşamaq icazəsi ala biləcək.

**Miqrasiya Məcəlləsinə təsdiqlənən dəyişiklikləri şərh edən Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri Azər Allahverənov qeyd etdi ki, Miqrasiya Məcəlləsindəki bu dəyişiklik ölkə ərazisində müvəqqəti yaşamaq istəyənlər üçün əlavə imkanlar yaradır:**

- Bu dəyişiklik xarici vətəndaşlığı olan mütəxəssislərin ölkəyə cəlb olunmasına da kömək edəcək. Daimi yaşamaq hüququ əldə edən şəxsin əmək fəaliyyəti göstərməsi üçün əlavə icazə almasına ehtiyac yaranmır. Həmin şəxslər siyasi hüquqlar istisna olmaqla, Azərbaycan vətəndaşlarının sahib olduğu digər bütün hüquqlardan istifadə edə bilərlər. Daimi yaşamaq hüququ olan şəxslər seçki yolu ilə bələdiyyələrin idarəolunmasında da yaxından iştirak imkanı qazanır. Onlar Dövlət İmtahan Mərkəzinin keçirdiyi qəbul imtahanlarında iştirak edə, digər vətəndaşlar kimi pulsuz ali təhsil almaq hüququndan yararlana bilərlər. Göründüyü kimi üstünlüklər çoxdur və bu, Azərbaycanda daimi yaşamaq hüququ əldə edənlər üçün daha geniş imkanlar, hüquqlar deməkdir. Müsbət haldır ki, Azərbaycanda daimi yaşamaq istəyənlərin sayı ildən-ilə artır.

**Məlahət**

# Soros "bəşəriyyətə nifrət edir"

## İlon Mask sosial şəbəkədəki müzakirələrin birində belə yazıb

**Amerikalı maliyyəçi Corc Soros "insanlığa nifrət edir", onun fondu heç də xoş niyyətlə yaradılmayıb.**

Bunu tviter kompaniyasının rəhbəri İlon Mask bildirib. Onun fikrincə, Soros fondları şəbəkəsi heç də xoş mərama xidmət etmir.

"O, sivilizasiyanın hüceyrələrini məhv etmək istəyir. Soros bəşəriyyətə nifrət edir", - İlon Mask sosial şəbəkədəki müzakirələrin birində belə yazıb.

Corc Soros müxtəlif ölkələrdə "rəngli inqilablar" həyata keçirməkdə ittiham olunur. Həmçinin bəzi iddialara görə, Avropa Parlamentinin onlarla deputatı Soros fondunun strukturları tərəfindən idarə edilir.

# Şabranda kütləvi zəhərlənmə olub

**Şabranda kütləvi zəhərlənmə olub, 9 nəfər zəhərlənib.**

"Report" Şimal bürosunun məlumatına görə, Şabran şəhərində fəaliyyət göstərən tikinti şirkətlərindən birinin işçiləri nahar fasiləsi zamanı yedikləri yeməkdən sonra özlərini pis hiss ediblər.

Təcili tibbi yardım briqadasının köməyilə 9 nəfər Şabran Rayon Mərkəzi Xəstəxanasına aparılıb.

Hazırda onların hansı şəraitdə zəhərləndiyi dəqiqləşdirilir.

# Dərslərin sentyabrın 1-dən başlaması daha uyğun olardı

## Emin Əmrullayev: "Tədris müddəti nə qədər çox olsa, o qədər yaxşıdır"



**Bu il 33315 müəllim sertifikatlaşdırma prosessinə cəlb olunub.**

**Bunu elm və təhsil naziri Emin Əmrullayev brifinqdə çıxışı zamanı deyib.**

"60 yaş üstü müəllimlərin sertifikatlaşdırma prosesində iştirak etməmə hüququ var. Lakin iki dəfə uğursuz olduqda əmək müqaviləsinə xitam verilə bilər", - deyə nazir əlavə edib.

Onun sözlərinə görə, ötən il sertifikasiyada uğursuz olan müəllimlər bu il də uğursuz olsalar, əmək müqavilələrinə xitam veriləcək.

"Ötən il uğursuz olan müəllimlər üçün təlim mərkəzləri təşkil edilib. Lakin həmin mərkəzdə iştirakdan imtina edən müəllimlər var. Onların imtina səbəbləri nazirlik tərəfindən araşdırılır", - deyə nazir qeyd edib.

Elm və təhsil naziri Emin Əmrullayev deyib ki, bu il müəllimlərin işə qəbulunda 10 mindən çox vakansiya olması planlaşdırılır.

"Növbəti həftədən müəllimlərin işə qəbulu üzrə imtahanlarda iştirak üçün elektron sənəd qəbulu başlayır. Bu il 8 minə yaxın müəllim eyni anda imtahan verə biləcək",- deyə nazir əlavə edib.

Emin Əmrullayev bildirib ki, bu il 22 məktəb direktoru və 19 bağça müdiri işində yol verdiyi nöqsanlara görə işdən çıxarılıb.

Nazirin sözlərinə görə, 2023-cü ilin əvvəlindən məktəbəqədər təhsil müəssisələrində monitorinqlər aparılır.

Emin Əmrullayev onu da qeyd edib ki, inkişaf etmiş ölkələrdə tətillər yayda yox, qışdadır. Bizdə isə 3 aylıq tətil müddəti var. Tədris müddəti nə qədər çox olsa, o qədər yaxşı olar.

"Uşaqlar indi daha az məktəbə gedir. 10 il hər həftəsonu məktəbə getməklə indiki uşaqlardan 2 il artıq tədris almışam. Tədris ilinin çox və uzun olması şagirdlərin gələcəyi üçün yaxşı olar. Fikrimcə, məktəblərdə sentyabrın 1-dən tədrisin başlaması daha uyğun olardı. Bu, sadəcə istəkdir", - deyə o əlavə edib.

**Aygün**

# Azərbaycanla Tacikistan arasında imzalanmış bir sıra sənədlər təsdiqlənib

**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Tacikistan Respublikası Hökuməti yanında Gömrük Xidməti arasında Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında keçirilən mal və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin təşkili haqqında Protokol"un təsdiq edilməsi barədə fərman imzalayıb.**

Fərmana əsasən, 2023-cü il aprelin 5-də Düşənbə şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Tacikistan Respublikası Hökuməti yanında Gömrük Xidməti arasında Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında keçirilən mal və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin təşkili haqqında Protokol" təsdiq edilib.

Dövlət başçısının digər fərmanı ilə isə 2023-cü il aprelin 5-də Düşənbə şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında yerquruluşu, torpaq münasibətləri, kadastr, geodeziya, kartoqrafiya, Yerin məsafədən zondlanması və coğrafi informasiya sistemləri sahələrində əməkdaşlıq haqqında Saziş" təsdiq edilib.

# NATO və Azərbaycan arasında enerji təhlükəsizliyi dialoqu keçirilib

## Üzv dövlətləri Azərbaycanın Alyansın etibarlı və önəmli tərəfdaşı olduğunu vurğulayıb



**NATO-nun Brüsseldə yerləşən mənzil-qərargahında ilk dəfə olaraq Daimi Nümayəndələrin Müavinləri Komitəsi (DPRC) formatında Alyans və Azərbaycan arasında enerji təhlükəsizliyi üzrə dialoq baş tutub.**

İclasda Azərbaycan Respublikasının energetika nazirinin müavini Elnur Soltanov, Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyinin başçısı Cəfər Hüseynzadə, habelə nümayəndəliyin heyəti iştirak edib. Nazir müavini E.Soltanov NATO mənzil-qərargahına səfəri çərçivəsində, həmçinin NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina və Beynəlxalq Katibliyin İqlim və enerji təhlükəsizliyi bölməsinin rəhbəri Mixael Rühle ilə ikitərəfli görüşlər keçirib.

Müzakirələr zamanı E.Soltanov Azərbaycanın uğurlu enerji strategiyası, "Cənub Qaz dəhlizi"nin əhəmiyyəti, ölkəmizin Avropanın enerji təhlükəsizliyinə töhfələri, bərpa olunan enerji mənbələri sahəsində imkanlar və yeni perspektiv layihələr barədə müttəfiq dövlətlərə məlumat verib.

NATO üzv dövlətləri Azərbaycanın Alyansın etibarlı və önəmli tərəfdaşı olduğunu vurğulayıb. Müttəfiq dövlətlər ölkəmizin Avropanın enerji təhlükəsizliyinə töhfələrini yüksək qiymətləndirib və bu çərçivədə perspektiv layihələrin əhəmiyyətinə toxunub.

# Müzakirələr aparılır

## Növbəti gəmilərə Qərbi Azərbaycan adları veriləcək




**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də (ASCO) növbəti gəmilərə Qərbi Azərbaycan adlarının verilməsi ilə bağlı müzakirələr aparılır, "Göyçə" adı artıq təsdiq edilib.**

Bunu ASCO-nun sədri Rauf Vəliyev İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Qaradağ Sənaye Parkının rezidenti - "Bakı Gəmiqayırma Zavodu" MMC-nin hazırladığı "Zəngilan" tankerinin suya salınması ilə bağlı mərasimdə bildirib.

Onun sözlərinə görə, bir neçə ad müəyyənləşəcək və təsdiqlənəcək.

ASCO-nun rəhbəri əlavə edib ki, "Bakı Gəmiqayırma Zavodu" ilə bir neçə gəminin inşası ilə bağlı kommersiya danışıqları davam edir: "Ümid edirəm ki, yaxın vaxtlarda bu danışıqlar başa çatacaq və müqavilələr imzalanacaq".

O qeyd edib ki , ASCO "Bakı Gəmiqayırma Zavodu"nun əsas sifarişçilərindən biridir: "Amma yeganə sifarişçi deyil. Bu zavod Xəzəryanı ölkələrin sifarişlərini yerinə yetirə bilmək gücünə malikdir".

# Ermənistan Təhlükəsizlik Şurası KTMT-dən çıxmağı müzakirə edib



**Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxmaq imkanlarını müzakirə edib, lakin indi İrəvanın gündəliyində belə bir məsələ yoxdur.**

Milli.Az "Sputnik Armenia"ya istinadən xəbər verir ki, bunu Ermənistan xarici işlər nazirinin müavini Mnatsakan Safaryan jurnalistlərə bildirib.

O, bu ehtimalın 2022-ci ilin sentyabrında Azərbaycanla şərti sərhəddə baş verən toqquşmalardan sonra Təhlükəsizlik Şurasının iclasında qaldırıldığını deyib.

"Amma bu addımı atmamaq və İrəvanda keçiriləcək sammit ərəfəsində blokla işi davam etdirmək qərara alınıb", - Mnatsakan Safaryan qeyd edib.

O, yaxın vaxtlarda KTMT-nin Cənubi Qafqazdakı vəziyyətlə bağlı verdiyi bəyanatın müzakirə olunacağını vurğulayıb.

# Ermənistana işləyənlər ifşa olundu







## "DTX-nin sadəcə Azərbaycanda deyil, üçüncü ölkədə Azərbaycan əleyhinə fəaliyyət göstərənləri zərərsizləşdirməsi çox önəmlidir"

**Üçüncü ölkə ərazisində məskunlaşaraq Ermənistan xüsusi xidmət orqanlarının tapşırıqlarını həyata keçirən 1980-ci il təvəllüdlü Rəşad Əhmədov adlı şəxs cinayət məsuliyyətinə cəlb olunub.**

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) məlumatında qeyd olunub ki, Rəşad Əhmədov maddi maraq müqabilində məxfi əməkdaşlığa cəlb olunmaqla adıçəkilən ölkənin xüsusi xidmət orqanlarının Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti zərərinə verdiyi tapşırıqları yerinə yetirib. Digər vətəndaşları da cəlb edərək videomateriallar hazırlayıb. Həmin videomateriallar Ermənistan xüsusi xidmət orqanları tərəfindən yaradılıb və onların nəzarəti altında Azərbaycan dilində fəaliyyət göstərən "Youtube" kanalları və digər sosial şəbəkələrdə paylaşılıb. Həmçinin 200 ədəd saxta xəritənin etnik separatizm məqsədilə Azərbaycan vətəndaşları arasında yayılmasını təşkil ediblər. Etnik və dini zəmində iğtişaşlar törətməyə çalışıblar. Azərbaycanda terror-təxribat əməllərinin törədilməsini planlaşdırıblar.

**Casus şəbəkəsinin ifşa olunması ilə bağlı "Şərq"ə danışan siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev bildirib ki, Dövlət Təhlükəsizlik Xidməti çox peşəkar fəaliyyət göstərir. Professor bir vətəndaş kimi qurum rəhbərliyinə minnətdarlığını bildirib:** "Eldar Mahmudovun yarıtmaz fəaliyyətindən sonra peşəkar DTX komandasının formalaşması təqdirəlayiqdir. DTX-nin sadəcə Azərbaycanda deyil, üçüncü ölkədə Azərbaycan əleyhinə fəaliyyət göstərən şəxsləri ifşa etməsi və zərərsizləşdirməsi çox önəmlidir. Nəzərə alaq ki, ələ keçən Rəşad Əhmədov birbaşa Ermənistana xidmət edib. Görün, bu adam nə qədər şərəfsizdir ki, 30 il ərzində torpaqlarımızı işğalda saxlamış, əhalimizə qarşı qətliamlar, soyqırımlar törətmiş vəhşi ermənilərə casusluq edirlər. Minlərlə şəhidin ruhunu sızladırlar. Vallah, adam belə məxluqlara deməyə söz tapmır. Daha doğrusu, əxlaqımız yol vermir ki, onların ünvanına layiq olduqları ifadələri səsləndirək. Lakin sevindirici hal odur ki, gec-tez düşmənə casusluq edənlər ifşa olunacaq və öz cəzalarını alacaqlar. Azərbaycanı bu cür ünsürlərdən təmizləmək lazımdır. Şükür olsun ki, ölkəmizin təhlükəsizliyi əmin əllərdədir. Xarici agentura öz məqsədinə nail olmaq üçün ilk növbədə iradəsi zəif şəxsləri, xainliyə meyilli olanları müəyyənləşdirir və onlarla əlaqə qururlar. Nəticədə öz xalqını, dövlətini pula satanların qarşılıqlı "yardımından" faydalanırlar. Əgər kiminsə xarakterində öz millətinə qarşı xəyanət arzusu varsa, hansı yolla olur-olsun, bunu büruzə verəcək".

**C.Nuriyev vurğulayıb ki, insanlarımızın xarici agentura şəbəkəsinin toruna düşməməsi üçün düzgün maarifləndirmə vacibdir:** "Yaxşı olar ki, televiziya kanallarımızda ən azından həftədə bir dəfə maarifləndirici proqram getsin. Mən uzun müddətdir dərs deyirəm və gənclərlə mütəmadi ünsiyyətdə oluram. Həyat təcrübəm göstərir ki, gənclərlə işləyəndə bizi daha rahat başa düşürlər. Təbii ki, burada metodik, pedaqoji və psixoloji yanaşma da önəmlidir. Yeniyetmələrimizi, gənclərimizi vətənpərvər, dövlətinə və millətinə bağlı əsl vətəndaş kimi yetişdirməliyik. Ən böyük problem maarifləndirmə sahəsindədir. Sosial şəbəkələrdə adətən çoxsaylı materiallar yüklənir və sürətli yenilənir deyə gənclər onları oxuyub çatdıra bilmir. Ona görə də bu platforma üzərindən maariflənmə istənilən nəticəni vermir. Ancaq televiziyalar milli-mənəvi dəyərlərimizlə bağlı qısa, yorucu olmayan videomateriallar hazırlayıb izləyicilərə təqdim edə bilərlər. Mən də ictimai əsaslarla bu işə töhfə verməyə hazıram".

**İsmayıl Qocayev**

# İrandakı rejim məqsədlərinə nail ola bilməyəcək

## Azərbaycana xəyanət edənlər, dövlətini, xalqını satanlar son nəfərinədək ifşa olunmalıdır




**Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq birgə məlumat yayıb. Qeyd olunub ki, İran xüsusi xidmət orqanları tərəfindən maddi maraq və dini təbliğat yolu ilə ələ alınmış bir qrup Azərbaycan vətəndaşının ölkə ərazisində sabitliyin pozulması məqsədilə törədəcəkləri cinayət əməllərinin qarşısının alınması istiqamətində növbəti əməliyyat tədbirləri həyata keçirilib.**

Müəyyən edilib ki, İran xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən Rufulla Axundzadə və oğlu Əlmürsəl Axundzadə "Kərimə" dövlətinin qurulması, ictimaiyyət arasında tanınan və vəzifəli şəxslərin həyatına suiqəsdlərin təşkil edilməsi məqsədilə fəaliyyət planı hazırlayıblar. Həmin planın bir hissəsi kimi Rufulla Axundzadə votsap, teleqram və digər mesajlaşma sistemlərində məxfi qruplar yaradıb. Bundan başqa, R.Axundzadə və oğlu Ə.Axundzadə həyatlarına sui-qəsdlərin təşkil edilməsi üçün vəzifəli şəxslərin və ictimai xadimlərin siyahısını, onların anket məlumatları, yaşayış və iş yerlərinin ünvanlarını qrup üzvlərinə təqdim ediblər. Bu məqsədlə o, odlu silah əldə etmək və "Molotov kokteyli" hazırlamaqla bağlı qrup üzvlərinə tapşırıqlar verib. Əməliyyat zamanı "Qısas 313" adlı qrupun 7 nəfər üzvü saxlanılaraq istintaqa təqdim ediliblər.

Aydın olub ki, Rufulla Axundzadə adları sadalanan şəxsləri təlimatlandıraraq onları təsir dairəsində saxlamaq məqsədilə davamlı virtual görüşlər keçirib. Bu yolla o, dəstə üzvlərində radikal meyillərin daha da güclənməsinə şərait yaradıb. Çirkin əməllərinə müqəddəs "Qurani-Kərim"i də alət edərək ona and içiblər. R.Axundzadə dəstə üzvlərini "dini təhsil" almaq adı ilə İrana aparmaqla hərbi təlimlərə və qanunsuz silahlı-ekstremist təşkilatlara cəlb etməyi planlaşdırıb.

**Politoloq Azər Niftiyev "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycan dövlət müstəqilliyi əldən edəndən İran ölkəmizə qarşı çeşidli təxribatlarını davam etdirir.** Xüsusən, son illərdə İranın Azərbaycana təzyiqləri daha da artıb. Bunun əsas səbəbi Azərbaycanın müstəqil, milli maraqlara söykənən xarici siyasət yürütməsi, geosiyasi sistemin tərkib hissəsi olması ilə bağlıdır. Ekspertə görə, digər səbəb isə Azərbaycan-İsrail münasibətlərinin yüksək səviyyədə olmasıdır: "1993-cü ildən İsrailin Azərbaycanda səfirliyi fəaliyyət göstərirdi. 2023-cü ilin martında Azərbaycanın İsraildə diplomatik korpusu fəaliyyətə başladı. Mayın sonunda İsrail Prezidentinin Azərbaycana səfəri gözlənilir. İşğal dövründə və müharibə vaxtı Ermənistana dəstək verən Tehran hökuməti Zəfərdən sonra ermənilərə dəstəyini daha da artırıb. Çünki bölgədə yeni reallıqlar formalaşıb. Zəngəzur dəhlizinin açılması yönündə atılan addımlar da İranı ciddi narahat etməkdədir. Təbii ki, Tehran rejmində təşviş doğuran ciddi məqamlardan biri də Güney Azərbaycanda milyonlarla soydaşımızın varlığı və onların İrandakı etiraz aksiyalarında fəal iştirakıdır. Soydaşlarımız molla rejiminin bayrağı altında yaşamaq istəmirlər. Bütün avtoritar rejimlərə xas olan bir səciyyəvi xüsusiyyət var. Daxili narazılıqları səngitmək üçün xaricdə düşmən axtarışına çıxırlar. İran da Azərbaycanı özünə düşmən elan edib. Elə ona görə də ölkəmizdə casus şəbəkəsini formalaşdıraraq "kərimə dövləti" yaratmağa çalışır. Görünən odur ki, bu proses illərdir davam etməkdədir. Ölkə daxilində İranın xüsusi xidmət orqanlarına casusluq edən şəxslərin ifşa olunması, bir-bir zərərsizləşdirilməsi olduqca mühümdür. İran Azərbaycanda təxtibarlar, iğtişaşlar törətməyə çalışır, ölkəmizin suverenliyini, ərazi bütövlüyünü təhdid etməyə səy göstərir".

**A.Niftiyevə görə, Tehranın təxribatları öz əleyhinə yönəlməkdədir:** "Molla rejimi zəiflədikcə, küncə sıxıldıqca daha da azğınlaşır və Azərbaycandakı agent şəbəkəsini fəaliyyətə keçirir. Əminliklə söyləyə bilərik ki, İrandakı rejim məqsədlərinə nail ola bilməyəcək. DTX və hüquq-mühafizə orqanlarımız casus şəbəkəsini ifşa etməklə İranın ölkəmizdə planlaşdırdığı təxribatların qarşısını almaqdadır. Vətənə xəyanət edənlər ən sərt şəkildə cəzasını almalıdır. Dövlətini, xalqını satanlar son nəfərinədək ifşa olunmalıdır. Prezident İlham Əliyev tərəfindən yürüdülən daxili və xarici siyasət Azərbaycanı regionda lider, dünyada isə önəmli dövlətlərdən birinə çevirib. Belə bir ölkəni təxribatlarla, casus şəbəkəsi ilə sarsıtmaq və Tehranın iradəsinə tabe etdirmək qeyri-mümkündür. Molla rejiminin bu cəhdləri nəticəsiz qalacaq. İran çoxvektorlu təzyiqlərə məruz qalmaqdadır. Ölkədə daxili vəziyyət gərgindir, əhali rejimə, mollalara etiraz edir".

**İsmayıl Qocayev**



**İrəvan mayın 19-da Moskvada Mirzoyan-Bayramov danışıqları çərçivəsində Ermənistan və Rusiya XİN rəhbərlərinin görüşünün mümkünlüyünü istisna etmir.**

**Bu barədə xarici işlər nazirinin müavini Paruyr Hovhannisyan məlumat verib.**

Görüşün üçtərəfli formatda, yoxsa Ararat Mirzoyan və Sergey Lavrov arasında baş tutacağı dəqiqləşməyib.

Vaşinqtonda XİN rəhbərləri səviyyəsində baş tutan görüşdə bəzi məsələlərdə razılığın əldə edildiyini deyən politoloq Samir Hümbətov "Şərq"ə bildirib ki, həmin razılıqlar mayın 14-də ölkə rəhbərləri səviyyəsində baş tutan Brüssel görüşündə özünü göstərdi: "İndi isə Rusiya prosesi pozmağa çalışır. Çünki Kreml üçün Azərbaycan və Ermənistan arasındakı münaqişənin bitməsi qəbuledilməzdir. Yəni əgər bu münaqişə bitsə, rəsmi Moskvanın Cənubi Qafqazdan çəkilmə prosesi başlayacaq. Bu səbəbdən də onlar prosesləri pozmağa çalışır. Prosesləri pozmaq xətti isə Lavrov və Mirzoyanın bağlı qapılar arxasında görüşüdür. Yəqin ki, Lavrov Mirzoyandan Vaşinqton görüşündə əldə edilən razılığın bəzi müddəalarını öyrənməyə çalışacaq. İndi Mirzoyanın ağzının bütöv olub-olmaması ona qalıb. Hər halda Lavrov istəyinə çatacaq".

# Lavrov-Mirzoyan görüşü

## "Moskva İrəvanı Vaşinqton görüşündəki razılaşmalardan daşındırmağa çalışacaq"

**Analitik əlavə edib ki, Moskvada baş tutacaq üçtərəfli görüşdə əsas müzakirə mövzusu "sülh prosesi", arxa planda isə Rusiyanın şəxsi mənafeyi olacaq:** "Çünki Kreml üçün bölgədəki sülh yox, öz varlığı önəmlidir. Yəni Rusiya Cənubi Qafqazda söz sahibi olmağı, sülhməramlı qüvvələrinin Qarabağda qalmasını və açılacaq Zəngəzur dəhlizində qoşunların yerləşdirilməsini arzulayır.

Bu isə nə Azərbaycana, nə də Ermənistana sərf edir. Ona görə də şimal qonşumuz prosesləri pozur.

Bu baxımdan da düşünürəm ki, 19 mayda Lavrov və Mirzoyan arasında baş tutacaq görüşdə, Moskva İrəvanı Vaşinqton görüşündəki razılaşmalardan daşındırmağa çalışacaq".

**Nihat Müzəffər**

# Arutyunyan və Vardanyan Qarabağda reinteqrasiyaya mane olur

## Samvel Babayanın Qarabağda icma rəhbərliyinə gətirilməsinə Azərbaycan etiraz etmir



**Qarabağdakı separatçıların rəhbəri Araik Arutyunyanın kənarlaşdırılması istiqamətində addımar atılır.**

Prosesə "general" Samvel Babayan rəhbərlik edir. Ekspertlərin fikrincə, Samvel Babayan Araikdən fərqli olaraq Nikol Paşinyana yaxın şəxsdir və onun erməni icmasının rəhbərliyinə gətirilməsi Azərbaycan hökuməti ilə icmanın dialoqunda müəyyən irəliləyişə səbəb ola bilər.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə bildirib ki, A.Arutyunyan birbaşa Kremlin təlimatları ilə hərəkət edir və onunla təmaslar Azərbaycan üçün qəbuledilməzdir:** "Arutyunyan və Ruben Vardanyan Qarabağda reinteqrasiyaya mane olur və böhranın davam etməsində maraqlıdırlar. Samvel Babayanın Qarabağda icma rəhbərliyinə gətirilməsinə Azərbaycan etiraz etmir. Baxmayaraq ki, Samvel Babayan Birinci Qarabağ müharibəsində Azərbaycana qarşı müharibədə fəal iştirak edib. Amma Araikdən və Vardanyandan fərqli olaraq Azərbaycanla təmaslarda maraqlıdır. Samvel Babayan erməni icmasının rəhbərliyinə gələrsə, Qarabağda yaşayan ermənilərin "status" və digər imtiyazlar alması tələbi ortadan qalxacaq. Rusiya da Xankəndidə Azərbaycanın yurisdiksiyasının təmin edilməsinə etiraz edə bilməyəcək. Proseslər Azərbaycanın lehinə işləyir. Avropa İttifaqı və ABŞ də ermənilərə hər hansı "status" verilməsi məsələsini qabartmır. Demək olar ki, Azərbaycanın şərtləri ilə razılaşıblar".

**İsmayıl**

# Ət bahalaşacaq

## Otlaq yerlərində pambıq sahələrinin salınması yolverilməzdir

**Kənd yerlərində insanlar heyvandarlıqla məşğul ola bilmir. Çünki örüş sahələri çox azdır. Bəzi bölgələrdə demək olar ki, yox səviyyəsindədir. Heyvandarlıq üçün gərəkli olan örüş yerlərində pambıq sahələri salınıb.**



## "Bəzi yerlərdə hökumətin tələbini icra hakimiyyəti orqanları, bələdiyyələr düzgün yerinə yetirmirlər"

Pambıqçılıq da lazımlı sahədir. O da olmalıdır. Lakin bir sahəni dirçəltmək üçün başqa bir sahəni məhv etmək olmaz. Mal-qara, ətlik heyvanların sayının azalması, ətin qiymətinin qalxmasına gətirib çıxarır. Qıtlıq olanda bahalaşma olur. Bu, nəzərə alınmalıdır. Böyük ehtimal ki, payıza doğru mal və qoyun ətinin qiyməti qalxacaq".

Bu barədə iqtisadçı-ekspert Pərviz Heydərov deyib. O bildirib ki, heyvandarlığın inkişafı üçün örüş yerlərinin olması başlıca şərtdir. Bu səbəbdən də bölgələrdə örüş yerləri üçün sahələr saxlanılmalıdır: "İşğaldan azad olunan ərazilərin heyvandarlıq potensialı çox yüksəkdir. Bu ərazilərdə kənd təsərrüfatının, o cümlədən heyvandarlığın inkişafı üçün münbit şərait var. Minalanmış ərazilər tamamilə təmizləndikdən sonra bu ərazilərdə də örüş üçün yerlər ayrılmalıdır. Ət və ət məhsullarına olan tələbatın ödənilməsi və qiymət artımının qarşısını almaq üçün ölkədə heyvandarlıq daha da inkişaf etdirilməlidir".

**Millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramov isə hesab edir ki, əkin sahələrinin inkişaf etdirilməsi heyvandarlığın inkişafına mane olmamalıdır. Onun sözlərinə görə, bəzi yerlərdə hökumətin tələbini icra hakimiyyəti orqanları, bələdiyyələr düzgün yerinə yetirmirlər:** "Otlaq yerlərində pambıq əkilməsi yolverilməzdir. Hökumət sahibkarların qarşısında tələb qoyub ki, mövcud olan boş ərazilərdə taxıl, pambıq və digər kənd təsərrüfatı bitkiləri üçün əkin sahələri yaradılsın.

Otlaq sahələrindən başqa məqsədlər üçün istifadə edilməsi iqtisadi baxımdan arzuolunan deyil. İqtisadi tərəfdən yanaşdıqda da, otlaq sahələrindən əkin yerləri kimi istifadə olunması sərfəli olmadığı kimi, heyvandarlığa da mənfi təsir edir. Bu zaman ot azalır, eyni zamanda onun qiymətində artım müşahidə edilir. Bu da ət və süd məhsullarının qiymətinin artımına təsir göstərir, iri və xırda buynuzlu mal-qaranın azalması ilə nəticələnir. Təəssüf ki, belə problemlər demək olar ki, əksər rayonlarda müşahidə edilir".

Azərbaycanda ekoloji kənd təsərrüfatı məhsullarına, xüsusilə də ət, süd və süd məhsullarına böyük tələbat olduğunu vurğulayan millət vəkilinin sözlərinə görə, kənd təsərrüfatının inkişafına məsul olan qurumlar, eləcə də kənd bələdiyyələri bitkiçiliklə yanaşı, heyvandarlığın da inkişafında maraqlı olmalı və ona şərait yaratmalıdırlar.

**Şəymən Bayramova**

# Heydər Əliyevin bütün ideyaları həyata keçib

## Milli Məclisin xüsusi iclasında 228 xarici nümayəndə iştirak edib




**Dünən Milli Məclisin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş xüsusi iclası keçirilib. İclasda 30-a yaxın xarici ölkənin parlamentinin, o cümlədən Ərəb Parlamenti, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk PA və Parlamentlərarası İttifaqın nümayəndə heyətlərinin üzvləri iştirak ediblər. Ümumilikdə iclasda 228 xarici nümayəndə iştirak edib.**

### "Heydər Əliyev dühasının və zəhmətinin bəhrəsi olan müstəqil Azərbaycan əbədi yaşayacaq"

Spiker Sahibə Qafarova bildirib ki, Heydər Əliyev olmasaydı, bu gün müstəqil Azərbaycan dövlətindən danışmaq çətin olardı. O deyib ki, müstəqilliyi qorumaq onu əldə etməkdən qat-qat çətindir: "Sabitliyin, təhlükəsizliyin təmin edilməsi neft strategiyasının həyata keçirilməsinə imkan verdi, ölkə iqtisadiyyatına milyardlarla dollar sərmayə qoyuldu. Neft ehtiyatlarından səmərəli istifadə üçün Neft Fondu yaradıldı, iqtisadi islahatlar, özəlləşdirmə həyata keçirildi. Elmi əsaslar üzərində qurulan xarici siyasət konsepsiyasının həyata keçirilməsinə başlandı". Spiker qeyd edib ki, Heydər Əliyevin hakimiyyətdə olduğu dönəmdə müsəlman Şərqində ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv edilib, mədəniyyətin inkişafı üçün müvafiq addımlar atılıb: "Milli həmrəyliyə nail olmaq üçün işlər görüldü, diaspor təşkilatlarının formalaşması dövlət siyasətinin tərkib hissəsinə çevrildi. Tale Heydər Əliyevi xüsusi missiya üçün seçmişdi. Heydər Əliyevin siyasi









uzaqgörənliyi ilə Vətənə, xalqa sevgisi vəhdət təşkil edirdi. Prezident İlham Əliyev demişdir ki, xalq taleyini Heydər Əliyevə etibar etdi və yanılmadı. Məhz Heydər Əliyevin əsasını qoyduğu yolu Prezident İlham Əliyev uğurla davam etdirir. Əldə olunan uğurlar dünyanın diqqətini ölkəmizə cəlb edib, 30 illik işğala son qoyulub, ərazi bütövlüyümüz təmin olunub. Əminəm ki, Heydər Əliyev dühasının və zəhmətinin bəhrəsi olan müstəqil Azərbaycan əbədi yaşayacaq".

### "Heydər Əliyevin dühası bütün türk dünyası üçün oriyentirə çevrilib"

Qazaxıstan Parlament Məclisinin Sədri Yerlan Koşanov bildirib ki, Heydər Əliyev bütün həyatını Azərbaycan xalqına xidmətə həsr edib: "Heydər Əliyevin dühası bütün türk dünyası üçün oriyentirə çevrilib. Heydər Əliyev Qazaxıstanda xalqlarımız arasında səmimi qardaşlıq münasibətlərinin qurulmasına çalışan şəxs kimi tanınır. Heydər Əliyev bildirib ki, Qazaxıstanla müştərək taleyimiz, tariximiz olub. Mən demək istəyirəm ki, Heydər Əliyevin bütün ideyaları həyata keçib. Bu il Astanada Heydər Əliyevin adına yeni küçə açılıb. Bu küçənin açılma mərasimində Qazaxıstan Prezidenti qeyd etdi ki, dünya miqyaslı siyasətçinin xatirəsini əziz tutmaq bizim borcumuzdur. Prezident İlham Əliyevin apreldə Qazaxıstana səfəri ilə ölkəmizdə Heydər Əliyevlə bağlı bir sıra tədbirlərə start verildi, telekanallarımızda Heydər Əliyev həsr olunmuş film göstərildi. Azərbaycan türk dünyasının mərkəzlərindən biridir. Heydər Əliyevin türk xalqlarının birləşməsində böyük rolu olub. Türk Dövlətləri Təşkilatının əsası da Naxçıvanda qoyulub".

Qazaxıstan Parlament Məclisinin Sədri vurğulayıb ki, bu gün Azərbaycan uğurla inkişaf edir: "Azərbaycan ərazi bütövlüyünü bərpa edərək inkişafının yeni mərhələsinə qədəm qoyub. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha böyük uğurlar əldə edəcək".

### "Heydər Əliyev müasir Azərbaycanın qurucusudur"

İordaniya Nümayəndələr Palatasının Sədri Ahmed Al-Safadi bildirib ki, Heydər Əliyevin dönəmində İordaniya ilə dost münasibətlər qurulub və bu münasibətlər Prezident İlham Əliyev və İordaniya Kralının rəhbərliyi ilə inkişaf etməkdədir: "Heydər Əliyev hər zaman xalqının intibahı üçün çalışıb. Hər iki ölkə regional və qlobal məkanda uğurla inkişaf edir".

### "Şavkat Mirziyoyev Füzulidə məktəb binasının açılışını edəcək"

Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva deyib ki, bu gün böyük dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirak etmək böyük şərəfdir. O, Özbəkistanda da Heydər Əliyevin xatirəsinin yad edildiyini söyləyib: "Heydər Əliyev təkcə müasir Azərbaycanın yaradılması üçün bünövrə qoyan siyasi xadim deyil, o, həmçinin öz xalqının sevimlisidir. Eyni zamanda Özbəkistan xalqının böyük dostudur. Özbəkistanda Heydər Əliyevi tanıyırlar, xatırlayırlar və yad edirlər. Özbəkistanda da Heydər Əliyevin xatirəsinə həsr olunmuş kompleks tədbirlər həyata keçirilir. Onun xatirəsinə ölkəmizdə küçələr adlandırılıb, barelyeflər quraşdırılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistana səfəri zamanı həmin xatirə abidələrinin, küçələrin açılışı reallaşdırıldı. Onun həyat yolundan bəhs edən xüsusi proqramlar hazırlanıb, mədəni tədbirlər, konfranslar keçirilir. Çox sevindirici haldır ki, bu tədbirlərdə ən çox aktivliyi gənc nəslin nümayəndələri göstərir. Onlar Heydər Əliyevin həyat yolunu öyrənməyə böyük həvəs göstərirlər". Tənzilə Narbayeva hazırda Azərbaycanın Heydər Əliyev yolu ilə getməyə davam etdiyini vurğulayıb: "Azərbaycanın iqtisadi imkanlarının genişləndirilməsi üçün böyük işlər görülür. Heydər Əliyevin memarı olduğu işləri hazırda İlham Əliyev uğurla davam etdirir, Azərbaycan xalqına məxsus dəyərlərin qorunub saxlanılması üçün addımlar atılır".

### "Heydər Əliyev Cənubi Qafqazda sülhün dəstəkçisi idi"

Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili deyib ki, Heydər Əliyev müasir Azərbaycanın formalaşmasında mühüm rol oynamış milli liderdir. Gürcü spiker qeyd edib ki, Heydər Əliyev Azərbaycan xalqının milli ruhunu gücləndirib, milli dövlətçiliyinin təməlini qoyub: "O, səmərəli siyasəti ilə ölkəni güclü firavan dövlətə çevirdi. Ən vacibi isə xalqın ürəyini fəth etdi. Heydər Əliyev Cənubi Qafqazda sülhün dəstəkçisi idi. O, Azərbaycanla Gürcüstan arasında güclü dostluq əlaqələrinin qurulmasını təmin etmişdi. Onun müstəsna rəhbərliyi ilə Azərbaycan-Gürcüstan-Türkiyə enerji tranzit marşrutları möhtəşəm uğurların nümunəsidir. Heydər Əliyev öz müdrikliyi ilə Azərbaycan üçün böyük miras qoyub".

### "Heydər Əliyev irsi daim yaşayacaq"

Misir Nümayəndələr Palatasının Sədri Hanaf Ali Əl Gebali bildirib ki, Heydər Əliyev ölkəsi üçün böyük nailiyyətlər əldə edib, bu nailiyyətlər Misirdə də yüksək qiymətləndirilir: "Heydər Əliyevin irsi Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Azərbaycanın uğurlu iqtisadi inkişafının əsası Heydər Əliyev tərəfindən qoyulub. Misir dost ölkələrə dəstəyini heç vaxt əsirgəmir. Bu yaxınlarda Misir Prezidenti Azərbaycana səfər etdi, bu, Prezident səviyyəsində Azərbaycana ilk səfərdir". Hanaf Ali Əl Gebali qeyd edib ki, Misir şirkətləri infrastruktur və tikinti sahəsində böyük təcrübəyə malikdir: "Turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi sahəsində də böyük potensial var. Biz xalqlarımız üçün firavanlığa səy göstərərkən Heydər Əliyevin irsini rəhbər tuturuq. Biz ölkələrimiz arasında əməkdaşlığı gücləndirmək əzmində olduğumuzu bir daha bəyan edirik".

### "Azərbaycan haqqında danışanda xüsusi şəxsiyyət kimi Heydər Əliyevi qürurla qeyd edə bilərik"

Parlamentlərarası İttifaqın Prezidenti Duarte Paçeko deyib ki, xüsusi şəxsiyyətlər haqqında yaddaş əbədidir: "Azərbaycan haqqında danışanda xüsusi şəxsiyyət kimi Heydər Əliyevi qürurla qeyd edə bilərik". O qeyd edib ki, Azərbaycan xalqı daim Heydər Əliyevə minnətdar olmalıdır: "Sizin iqtisadiyyatınızın güclü olması onun uzaqgörənliyinin nəticəsidir. Onun sayəsində Azərbaycan çox gözəl tanınır və beynəlxalq aləmdə hörmətə, nüfuza malikdir. Azərbaycan multikulturalizm dəyərlərinə, sülh və əmin-amanlığa nail oldu. Heydər Əliyev bu işləri müstəqillikdən əvvəl və müstəqillikdən sonra da gördü. Təşəkkür edirəm ki, məni bura dəvət etdiniz, mənə imkan yaratdınız ki, tarixi şəxsiyyət haqqında danışım".

### "Heydər Əliyev dünya miqyaslı siyasi xadimdir"

Qırğızıstan Joqorku Keneşin (parlament) Sədri Nurlanbek Şakiyev bildirib ki, Heydər Əliyev xalqı üçün böyük işlər görüb, iqtisadi müstəqilliyinin əsasını qoyub. Nurlanbek Şakiyev qeyd edib ki, Azərbaycanda sabitliyin təmin olunmasında da Heydər Əliyevin böyük rolu olub: "Heydər Əliyev dünya miqyaslı siyasi xadimdir, türk dünyasında böyük iz qoyub. Qırğız yazıçısı Çingiz Aytmatov deyib ki, Heydər Əliyev tarixi, əfsanəvi şəxsiyyətdir. Heydər Əliyev müasir Azərbaycan tarixinin yaradıcılarından biridir".

### "Azərbaycanın bütün uğurlarında Heydər Əliyevin izi var"

Mərakeş Nümayəndələr Palatasının sədri Rəşid ƏlAlami bildirib ki, Azərbaycanın bütün uğurlarında Heydər Əliyevin izi var. Azərbaycanın ərazi bütövlüyünü artıq bərpa etdiyini bildirən Mərakeş Nümayəndələr Palatasının sədri qeyd edib ki, Mərakeş də ərazi bütövlüyü uğrunda mübarizə aparıb. O, xüsusi sessiyada iştirakdan məmnun olduğunu vurğulayıb.

### "Heydər Əliyev güclü Azərbaycan dövlətinin yaradılmasına nail olub"

Serbiya Milli Assambleyasının sədri Vladimir Orliç bildirib ki, parlamentarizmlə bağlı da Heydər Əliyevin böyük rolu var. Heydər Əliyev parlamentarizmə yeni ruh gətirib: "Prezident İlham Əliyev Serbiya xalqının böyük dostudur: "Serbiyadan Heydər Əliyevin xatirəsini birgə yad etmək üçün gəlmişik. Serbiyada çox gözəl bir parkda Heydər Əliyevin abidəsi var. Spiker Sahibə Qafarovanın Serbiyaya səfər edəcəyini elan etməsindən də şadıq. Azərbaycan hər zaman Serbiyanın dəstəyinə əmin ola bilər. Azərbaycanın gələcəyinin parlaq olmasını arzu edirəm".

### "Heydər Əliyev irsi dialoq və harmoniyanın nümunəsidir"

Rumıniya Parlamentinin Deputatlar Palatasının sədr müavini Vasile-Daniel Suçiu bildirib ki, Heydər Əliyev irsi dialoq və harmoniyanın nümunəsidir. Vasile-Daniel Suçun deyib ki, Rumıniya Azərbaycanın müstəqilliyini tanıyan ikinci ölkə olub: "2009-cu ildə Azərbaycan və Rumıniya arasında strateji tərəfdaşlıq haqqında saziş imzalanıb. Dostlar həyat boyu seçdiyimiz ailədir. Azərbaycan xalqına inkişaf, tərəqqi arzulayır, Heydər Əliyevin 100 illiyi münasibəti ilə təbrik edirəm".

### "Heydər Əliyev irsi xalqları inkişaf yoluna qədəm qoymağa ruhlandırıb"

Pakistan Milli Assambleyasının sədr müavini Zahid Akram Durrani bildirib ki, Heydər Əliyev Azərbaycanın inkişafını, rifahını təmin edən şəxsiyyət olub, ölkəyə çətin dövrlərdə rəhbərlik edib. O deyib ki, Heydər Əliyev hələ 1969-cu Sovet Azərbaycanında rəhbərliyə gələn zaman inkişafın əsasını qoyub: "Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur. Azərbaycan inkişaf edən bir ölkədir. Pakistan da oxşar uğurlara nail olmaq üçün yola çıxıb. İnanırıq ki, Pakistan və Azərbaycan qarşılıqlı çalışaraq rifaha nail ola bilər. Ticarət, iqtisadiyyat, enerji, turizm sahəsində əməkdaşlıq üçün böyük imkanlar var. Biz əməkdaşlığı daha da dərinləşdirməklə inkişafı, rifahı təmin etmiş olacağıq. Heydər Əliyevin irsi xalqları inkişaf yoluna qədəm qoymağa ruhlandırıb".

### "Heydər Əliyevin xatirəsi daim yaşayacaq"

Moldova Parlamentinin sədr müavini Mixail Popşoy bildirib ki, Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə güclü iqtisadiyyata malik, inkişaf edən dövlətə çevrilib. Mixail Popşoy deyib ki, Heydər Əliyev daim sülh və əməkdaşlığı təşviq edib: "Heydər Əliyev Moldova ilə münasibətlərin inkişafında mühüm rol oynayıb. Biz Azərbaycan xalqı və dövləti ilə dostluq münasibətlərinin inkişafında maraqlıyıq. Moldovadakı Azərbaycan diasporu və səfirinin münasibətlərimizin inkişafında rolunu da xüsusi qeyd etmək istəyirəm". Mixail Popşoy qeyd edib ki, Heydər Əliyevin xatirəsi daim yaşayacaq.

### "Heydər Əliyev Azərbaycanın uğurlu inkişafında böyük rol oynayıb"

Belarus Nümayəndələr Palatasının sədr müavini Valeriy Mitskeviç bildirib ki, Belarus-Azərbaycan əlaqələrinin inkişafında Heydər Əliyevin müstəsna rolu var: "Bu gün Belarus və Azərbaycan prezidentləri arasında münasibətləri qeyd etmək istəyirəm. Heydər Əliyev kursunun layiqli davamçısı Prezident İlham Əliyev Belarusun böyük dostu olduğunu sübut edib. Qarşılıqlı yardım səmərəli əməkdaşlığın təminatıdır. Liderlərimiz arasında münasibətlər dövlət qurumlarımız üçün bir etalondur. Heydər Əliyevin həyat yolu hamımız üçün etalondur".

**İsmayıl**

---

# Millətçilik yüksəldi

## Dünya mediası Türkiyə seçkilərinin ikinci turuna dair proqnozlarını verib

**Türkiyədə mayın 14-də keçirilən prezident və parlament seçkiləri dünya mediasının da əsas gündəminə çevrilib. Nüfuzlu media qurumları Türkiyədəki seçkilərin nəticələrini, xüsusən ikinci tur məsələsini manşetlərinə daşıyıblar.**

**İngiltərənin "Financial Times" qəzeti** "Türkiyədə seçkinin ikinci tura keçməsi ilə bağlı üstünlük Ərdoğandadır" başlığı ilə çıxıb. Qəzet yazıb ki, "Əsas rəqibini asanlıqla məğlub edərək ikinci tura çıxan Türkiyənin təcrübəli lideri Rəcəb Tayyib Ərdoğan, deyəsən, hakimiyyətini üçüncü onilliyə uzatmaq yolundadır".

**"CNN İnternational" telekanalı** "Türkiyə müxalifəti ikinci turda Ərdoğanla sərt mübarizə aparacaq" başlığına üstünlük verib. CNN xəbərlərində analitiklər seçkidə üçüncü olan Sinan Oğanın ultra-millətçi seçicilərinin ikinci turda Ərdoğana üstünlük verəcəyini proqnozlaşdırıblar.

**Amerikanın "New York Times" qəzeti** Türkiyənin prezident seçkilərində ikinci turu ilk dəfə yaşayacağını bildirsə də, Ərdoğanın üstünlüyə malik olduğu və Sinan Oğana səs verən 5,7 faizin ikinci turda böyük ehtimalla Ərdoğana üstünlük verəcəyini təxmin edib. Qəzet onu da yazıb ki, Ərdoğanın parlamentdə çoxluğu qazanması da onun xeyrinədir. Nəşr əlavə edib ki, Ərdoğanın seçki kampaniyası zamanı millətçi ritorikasını yüksəltməsi həm ona, həm də mühafizəkar parlament alyansına kömək edib: "Ərdoğan ABŞ-ni tənqid etməyə davam edib, hətta Baydenin onu devirməyə çalışdığını bildirib".

**"Politico" jurnalı Ağ Evin 14 may seçkiləri ilə bağlı açıqlamasını "Bayden Türkiyə seçkilərində qalib gələni dəstəkləyir" başlığı ilə xəbər verib:** "Vaşinqton bildirir ki, Prezident Co Bayden kimin qalib gəlməsindən asılı olmayaraq Türkiyə administrasiyası ilə işləməyi səbirsizliklə gözləyir". "Politico"da başqa bir xəbər isə "Rəqibi Türkiyə seçkilərində məyus olduğu halda, Ərdoğan ikinci turda öndədir" olub.



**Yunan qəzeti "Kathimerini" nəşri isə seçkini öz səhifəsinə "Türkiyə seçkiləri:** Yunanlar nəticələri necə görür?", "Türkiyə prezident seçkilərinin ilk turundan sonra qorxu və ümidlər - Afinada narahatlıqlar nələrdir?" başlıqları ilə daşıyıb. "Türkiyə seçkilərindən beş dərs" başlıqlı xəbərdə "İqtisadiyyat o qədər də önəmli deyil, kürdlərin səsləri müxalifətə yetərli deyildi, zəlzələnin nəticələri məhdud idi, millətçilik yüksəldi, sandıqlar alt-üst oldu" kimi qiymətləndirmələrə yer verilib.

**İtaliyanın "La Repubblica" qəzeti yazıb:** "Ərdoğan 28 may seçkilərində favoritdir. Seçki yarışında liderliyini davam etdirən prezident, demək olar ki, 5 xal irəlidədir. Bundan başqa, o, sadiq bazasına arxalana bilər. İndi bütün gözlər seçkidə 3-cü yeri tutan millətçi Sinan Oğanın üzərindədir. Sinan Oğan gülümsəyir. Qəzet və televiziya müsahibələrində qısa müddətdə populyar olmasından açıq-aşkar məmnundur.

**"Foreign Policy" jurnalının manşetində əsas xəbər** "Türkiyə ikinci tur seçkilərə hazırlaşır" olub. Jurnal Sinan Oğanın səslərini və ikinci turda oynayacağı rolu vurğulayıb: "İkinci turda səs çoxluğu əldə etmək və prezidentliyə qalib gəlmək üçün ən böyük amil üçüncü namizəd, ultra-millətçi tərəfi təmsil edən və indi yarışdan kənarda qalan Sinan Oğan ola bilər.

**İsmayıl**

# "Sinan Oğan faktoru çox şişirdilir"

## Natiq Miri: "Söhbət narazı elektoratdan gedir. Müəyyən seçici kütləsi var ki, həm "Cümhur İttifaqı"ndan, həm də "Millət İttifaqı"ndan narazıdır"

**Mayın 14-də Türkiyədə keçirilən prezident seçkisində namizədlərdən heç biri 50 faizdən çox səs qazanmadığı üçün səsvermə ikinci tura qaldı. Mayın 28-də türk xalqı iki namizəd - Rəcəb Tayyib Ərdoğan və müxalifət lideri Kamal Kılıçdaroğlu arasında seçim edərək öz rəhbərini seçəcək. Xatırladaq ki, ilk turda Ərdoğan 49,51 faiz, müxalifət lideri isə 44,88 faiz səs toplayıb.**





*"Sinan Oğan, birbaşa Kamal Kılıçdaroğluna dəstəyini açıqlasa belə sözügedən elektorat Kılıçdaroğluna səs verməyəcək"*

"Ata" siyasi blokunun təmsilçisi Sinan Oğan isə 5,17 faiz səs yığıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Twitter" hesabında seçki ilə bağlı paylaşım edib. Ərdoğan seçki zamanı təxribatlara yol vermədən, təzyiqlərə məhəl qoymadan, çətinliklər qarşısında təslim olmadan mübarizə apardıqlarını vurğulayıb: ""Cümhur İttifaqı" olaraq, ölkəmizin ən gərgin seçkilərinin ilk sınağından, Allaha həmd olsun ki, uğurla çıxdıq. İndi isə 14 mayda əldə etdiyimiz uğuru daha böyük qələbə ilə taclandırmağın vaxtıdır". Prezident 28 may tarixinin "Türkiyə yüz ili"nin müjdəçisi olacağını deyib: "Türkiyə bizdən xidmət gözləyir, hərəkət gözləyir, millətimiz bizdən onu hədəfləri ilə bir araya gətirməyi gözləyir. Zəlzələdən zərərçəkənlərimiz yaralarının tezliklə sağalmasını gözləyirlər". Avropa İttifaqı da Türkiyədəki prezident seçkiləri ilə bağlı bəyanat yayıb. Qeyd olunub ki, Aİ prezident və parlament seçkilərinin şəffaf keçirilməsini və səsvermə zamanı yüksək fəallığı demokratiyanın bariz nümunəsi kimi qiymətləndirir. İkinci tur öncəsi müzakirə olunan əsas məsələlərdən biri də seçkilərin birinci turunu sonuncu yerdə başa vuran Sinan Oğanın kimi dəstəkləyəcəyidir. Oğan dəstəkləyəcəyi namizəd üçün 5 şərtini açıqlayıb. Şərtlərdən biri konstitusiyanın ilk dörd maddəsinin dəyişməzliyi, yəni 66-cı maddədə Türklüyün Konstitusiyadan çıxarılması cəhdinə qarşı sədd qoyulmasıdır. Digər şərtlər isə 13 milyon qaçqının göndərilməsi, son iqtisadi böhranın əsas səbəbləri olan faiz, inflyasiyadan azad olmaq, terror təşkilatları və onların siyasi strukturları ilə əməkdaşlıq etməməkdir.

**Milli Strateji Təhqiqatlar Mərkəzinin sədri, politoloq Natiq Miri "Şərq"ə deyib ki, Sinan Oğana verilən səs əhəmiyyətlidir və daha çox milliyətçi kəsimə aid səslərdir.** Analitik vurğulayıb ki, Oğana səs verənlərin bir hissəsi MHP sədri Dövlət Baxçalıya etiraz edənlər, digər hissəsi isə millətçiləri parçalamaq, zəiflətmək məqsədilə yaradılmış İYİ Partiyaya qoşulan, ancaq sonradan onların da Qərbin maşası olduğunu görən şəxslərdir: "Lakin xüsusilə qeyd etmək lazımdır ki, seçkidə əsas qərar Sinan Oğana məxsus deyil. Oğan faktoru Türkiyə mediasında və bizdə çox şişirdilir. Söhbət narazı eloktoratdan gedir. Müəyyən seçici kütləsi var ki, həm "Cümhur İttifaqı"ndan, həm də "Millət İttifaqı"ndan narazıdır. Ancaq heç bir halda türk insanını qətl edən, terror törədən, imperialist güclərin maşası rolunu oynayan mərkəzlərə səs verməzlər. Oğan birbaşa Kamal Kılıçdaroğluna dəstəyini açıqlasa belə sözügedən elektorat Kılıçdaroğluna səs verməyəcək. Türkiyənin təhlükəsiz gələcəyinə səs verəcəklər. Təhlükəsiz gələcək də "Cümhur İttifaqı" ilə mümkündür və seçici önündə bir neçə alternativ yoxdur. Digər yandan, Oğanın siyasi baxımdan özünün perspektivi məsələsi var. PKK-ya qarşı hər zaman mübarizə aparan, onların qarşısında duran bir şəxs öz seçicilərinə xəyanət edə bilməz. Ona görə də siyasi perspektivini məhv etməmək üçün addımlar atmalıdır. Əgər bunun əksini etsə, "Millət İttifaqı" ilə hansısa "siyasi alverə" getsə, gələcək siyasi perspektivinin üstündən xətt çəkmiş olacaq".

**N.Miri bəyan edib ki, S.Oğan yeganə faktor deyil və ikinci turda Ərdoğana səs verənlərin sayı arta bilər:** "Seçkinin nəticələri və parlament seçkisində qazanılmış uğur Türkiyə seçicilərinə göstərdi ki, ölkənin gələcəyi "Cümhur İttifaqı" ilə birbaşa bağlıdır. Türkiyə toplumu siyasiləşib. Seçicilər fərqindədir ki, parlamentdə "Cümhur İttifaqı"nın qələbəsi üzərinə Kılıçdaroğlu prezident olarsa, ölkə ciddi xaosa yuvarlanar. Bu da ancaq və ancaq Türkiyənin düşmənlərinin maraqlarına xidmət göstərəcək. Şübhə yox ki, ikinci turda səs verənlər bu parametrləri nəzərə alaraq səsverməyə gedəcək".

**İsmayıl Qocayev**

**Avropa İttifaqı (Aİ) Çinlə münasibətlərin rəngini dəyişmək üçün əlindən gələni edir. Aİ ABŞ-Britaniya ikilisinin rəsmi Pekinlə kəskinləşən rəqabəti fonundan kənarda qalmağı hədəfləyir. Aİ-nin yüksəksəviyyəli siyasətçilərinin Pekinə ard-arda səfərləri də bundan xəbər verir.**




# Avropa İttifaqı Çinlə münasibətlərin rəngini dəyişir

## Müzakirələr Azərbaycanın diqqətlə izlədiyi prioritetlər siyahısındadır

Aİ ilə Çin arasında əməkdaşlıq güclü iqtisadi xarakterə malikdir, lakin indi İttifaq Rusiya-Ukrayna müharibəsi səbəbindən daha böyük problem qarşısındadır. Bu problemləri həll etmək üçün Çinə edilən səfərlərin məqsədini anlamaq olar.

**Siyasi şərhçi Aqşin Kərimov düşünür ki, ABŞ ilə Çin arasında gərginlik artdıqca Çin Sədri Si Cinpinin Avropa liderləri ilə görüşməsi Çinin Qərblə rəqabətində Avropanı neytrallaşdırmaq cəhdi kimi qiymətləndirilə bilər.** Ekspertin sözlərinə görə, iqtisadi özüllərin üzərində inkişaf edən Aİ üçün Çinin bu mövqeyi məqbuldur. Ona görə ki, Aİ özü də Qərb-Rusiya, Qərb-Çin kəlbətinlərinin dişləri arasında sıxılmaq istəmir: "Aİ ilə Çin arasındakı yeni düzən yaratmaq cəhdləri mərkəzləşdirilmiş və məsuliyyətli qərarların verilməsinə gətirib çıxarmalıdır. Ancaq yaxın perspektiv üçün üfüqdə belə işartı görmək çətindir. Çünki Çin hələ də formalaşan yeni siyasi nizamda ən həlledici yerə yaxınlaşmayıb və rəqibləri onu sıxışdırırlar. Bu mənzərədən danışarkən Çinin üzləşdiyi Tayvan problemi və rəsmi Pekinin daxili siyasətdəki çətinliklərini də qeyd etmək lazımdır. O da bəllidir ki, Çin Rusiya-Ukrayna müharibəsinin gedişatında ABŞ-nin düşdüyü boşluqları Tayvanı özünə birləşdirmək üçün fürsətə çevirmək istəyir. Yəni Rusiya-Ukrayna müharibəsi Çin üçün çağırışları ikiqat edir. O həm Tayvan üzərindəki legitimliyini bərpa etməlidir, həm də Avropanı Qərbin bir parçası kimi davranacaq mövqedən çəkindirməlidir. Düzdür, Çin artıq münaqişəli regionlarda da siyasi tənzimləyici kimi alətlər qazanır. Bir növ Rusiya ilə ABŞ-nin moderatorluq aktivlərini zədələyir. Bunun özü Pekin üçün böyük üstünlüklərdir. Lakin fövqəladə bir həddə gəlib çatmayıb".

*Analitik hesab edir ki, Çin rəqiblərinin əhatəsində olan bölgələrdə möhkəmlənməyə çalışmaqla mövqeyini göstərir:* "Pekinin Yaxın Şərq və Avropa İttifaqı ilə siyasətindəki yeni ştrixlər vahid bir yanaşma kimi davamını gətirə bilər.

Çinin qlobal siyasətini fərqli üstünlüyə çıxarması, xüsusilə onun Avropa ilə əlaqələrindəki motivlər Orta Dəhliz layihəsi üzrə növbəti danışıqlar mərhələsi kimi də başa düşülə bilər. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) Cənub-Şərqi Asiya və Çindən başlayır. Orta Dəhliz layihəsi həmin marşrutun Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Türkiyəyə çatdırılmasını və daha sonra Avropa ölkələrinə keçməsini özündə ehtiva edir. Bu məqamda Azərbaycanla Çin arasındakı danışıqların da olacağı gözlənilləndir. Bu həm ikitərəfli, həm də çoxtərəfli formatda baş tuta bilər. Ona görə də Çinlə Aİ arasındakı müzakirələr Azərbaycanın diqqətlə izlədiyi prioritetlər siyahısındadır".

**İsmayıl Qocayev**



# İranlı "professor" sayıqladı

## Təxribatçı "ekspert"lərin erməni təəssübkeşliyinin, canfəşanlığının məqsədi bəllidir

**İran mediasında tez-tez Azərbaycan əleyhinə qalmaqallı açıqlamaları, ermənipərəst fikirləri ilə gündəmə gələn qatı paniranist Ehsan Movəhhediyan yenə anti-Azərbaycan fikirlər səsləndirib.**

Movəhhediyan "İran diplomatiyası" saytında dərc olunan "analitik" şərhində Azərbaycan və Ermənistan liderlərinin Brüssel görüşünün nəticələri barədə ağlına gələni danışıb. Bildirib ki, Qarabağın tam şəkildə Azərbaycana qaytarılması Rusiya və İranın mövqelərini zəiflədəcək: "Bu, xüsusilə də Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxmağa hazır olması barədə xəbərlər fonunda İran sərhədlərində İsrail, Türkiyə və NATO-nu gücləndirəcək. Ermənistanın Naxçıvan Muxtar Respublikasının Azərbaycanla dəmir yolu əlaqəsinin bərpasına razılıq verməsi Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsinə gətirib çıxaracaq və bundan sonra Zəngəzur vilayətinin işğalı baş tutacaq".

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib ki, iranlı "professor"un sayıqlamaları və "öncəgörmə"ləri tipik erməni əhval-ruhiyyəlidir.** Partiya rəhbəri qeyd edib ki, 44 günlük İkinci Qarabağ müharibəsinin Azərbaycanın Qələbəsi ilə başa çatmasından sonra istər İran rəsmilərinin, istərsə də iranlı ekspertlərin mövqelərinin Ermənistanın mövqeyi ilə üst-üstə düşməsi faktları artıq adi hala çevrilib: "Ehsan Movəhhediyan kimi fars şovinistləri Qarabağ və Zəngəzura dair fikirlərində az qala ermənilərdən çox ermənilik etməyə səy göstərirlər. Bu cür təxribatçı "ekspert"lərin erməni təəssübkeşliyinin, canfəşanlığının məqsədi bəllidir. Onların əsas dərdi heç də ermənilərin qayğısına qalmaq deyil. İranın diplomatik strukturlarına və xüsusi-xidmət orqanlarına bağlı olan bu cür "ekspert"lər əslində molla rejiminin Ermənistan üzərindən geosiyasi planlarının ictimailəşdirilməsinə xidmət edirlər. Bu isə bizə molla rejiminin Azərbaycana qarşı xain niyyətlərindən, gerçək mövqeyindən xəbər tutmağımıza imkan verir. Görünən budur ki, rəsmi Tehran Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına hər vasitə ilə mane olmağa çalışacaq".

**İsmayıl Qocayev**

# Valideynlər narazıdır

## 1-ci sinfə qəbulla bağlı ciddi problemlər yaşanır

**2023-2024-cü tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə şagird qəbulunda Azərbaycan bölməsi üzrə sorğuların yerləşdirilməsi (məktəb seçimi) prosesinə başlanılıb. Həmçinin mayın 31-i saat 18:00-a qədər dövlət ümumtəhsil müəssisələrinin tədris digər dillərdə aparılan birinci siniflərinə qəbulla bağlı uşaqların həmin dil üzrə şifahi nitq bacarıqlarının yoxlanılması məqsədilə təşkil olunan müsahibəyə yazılmaq üçün qeydiyyat aparılacaq. Paralel şəkildə mayın 20-dən iyunun 9-dək müsahibələr aparılacaq.**




*Öz evinin yanındakı məktəbə yer olmadığı üçün qeydiyyatdan keçə bilməyən yüzlərlə şagird var*

İyunun 20-də tədris digər dillərdə aparılan məktəblərdə məktəb seçiminə başlanılacaq və proses sentyabrın 14-dək davam edəcək.

Bakı Avropa Liseyi, Respublika İncəsənət Gimnaziyası və Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin Azərbaycan bölməsi üzrə birinci siniflərinə qəbulla bağlı müsabiqəyə yazılmaq üçün qeydiyyat isə mayın 15-i saat 11:00-dan iyunun 27-si saat 18:00-a qədər həyata keçiriləcək.

Qeyd edək ki, artıq bir neçə ildir məktəb seçimi prosesi valideynlər tərəfindən narazılıqla qarşılanır. Övladlarını istədikləri məktəbdə qeydiyyatdan keçirə bilmədikləri üçün başqa məkəb seçmək məcburiyyətində qalan validyenlər onlayn sistemin özünü doğrultmadığını iddia edirlər.

**Bu il 160 mindən çox uşağın 1-ci sinfə qəbulunun gözlənildiyini xatırladan təhsil eksperti Kamran Əsədov isə "Şərq"ə açıqlamasında deyib ki, hələ sentyabra qədər qeydiyyatla bağlı problemlər olacaq:** "Hazırda BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərinin I sinfində təhsil alan şagirdlərdən 37789-u Azərbaycan, 9009-u rus bölməsindədir. Amma kifayət qədər rus bölməsi üzrə şagird yer olmadığı üçün dərsə başlaya bilməyib. Digərləri, yəni Azərbaycan bölməsi üzrə təhsil almaq istəyənlər də məhz yer olmadığı üçün qeydiyyatdan keçə bilməyib. BŞTİ sistemdə hələ də müraciət edib, amma qeydiyyatdan keçməyənlərin olduğuna görə qeydiyyat müddətini hər il uzadır. Hətta öz evinin yanındakı məktəbə yer olmadığı üçün qeydiyyatdan keçə bilməyən yüzlərlə şagird var.

Digər səbəb isə xarici ölkələrdə istirahət üçün gedənlərlə bağlıdır. Belə ki, onlar ölkədə olmadıqları üçün qeydiyyatdan keçə bilməyiblər, rayonlardan paytaxt Bakıya köçənlər var ki, onlar ərazi üzrə qeydiyyata düşmədiyi üçün gecikmələr olub. Hesab edirəm ki, birinci sinfə şagird qəbulunun vaxtının uzadılması hər bir uşağın təhsilə cəlb olunması və dövlətin yaratdığı təhsil imkanlarından bərabər istifadənin təmin edilməsi məqsədlərinə xidmət edir. Amma əlavə yerləşdirmə siniflərdə şagird sıxlığını artırmamalıdır. Bu zaman siniflərdə şagird sayını nəzərə almaq lazımdır".

**Ekspertin sözlərinə görə, Bakı şəhərindəki mikroərazi prinsipi tətbiq olunan məktəblərdə I sinfə onlayn qeydiyyat zamanı valideynləri məktəbin müəyyən edilmiş mikroərazisində yaşayan, valideynləri həmin məktəbdə işləyən, bacı və qardaşları həmin məktəbdə oxuyan uşaqların məktəbə qəbul üzrə üstünlük hüquqları təmin olunur:** "Bunlar həmin ərazilərdə şagird sıxlığının aradan qaldırılması və ilk növbədə həmin ərazilərdə yaşayanların təhsil alma hüququnu təmin etmək üçündür".

K.Əsədov onu da qeyd edib ki, məktəbəqədər hazırlıqda Azərbaycan bölməsində oxuyan, lakin birinci sinfə başqa məktəbdə davam etmək istəyən uşaqların valideynləri də ciddi problemlə üzləşirlər. Əksəriyyət övladının əvvəlki sorğusunu silib, yenidən müraciət edə bilmədiyini iddia edir.

**Şəymən**

# CHP-də "yarpaq tökümü" başladı

## Batan gəmini ilk tərk edən İYİ Partiya olacaq

**Cümhuriyyət Xalq Partiyasının sədr müavini Onursal Adıgözəl istefa verib. O, istefa ərizəsini özünün "Twitter" hesabında paylaşıb.**



"Sədrimiz cənab Kamal Kılıçdaroğlunun seçki prosesinə xələl gətirməmək üçün 2018-ci ildən bəri tutduğum vəzifəmi tərk edirəm", - deyə istefa ərizəsində qeyd olunub.

Onursal Adıgözəl istefasının səbəblərini açıqlamayıb.

Məsələyə münasibət bildirən AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli "Şərq"ə söyləyib ki, bu istefasız da Kılıçdaroğlu ikinci turda məğlub olacaq: "Millət İttifaqı" seçkilərdə qalib gələcəyini zənn edirdi. Ya bunları kimsə bərk aldatmışdı, ya da yanlış proqnozları vardı. Ümumiyyətlə, bu dəfə parlamentdə "Millət İttifaqı"nın daha çox yerə sahib olacağı proqnozlaşdırılırdı. Lakin buna rəğmən "Cümhur İttifaqı" yenə də çoxluq təşkil etdi. Həmçinin Prezident seçkilərində də cüzi bir faiz məsələsinin birinci turda həllinə imkan vermədi. Bu cüzi faizi isə Rəcəb Tayyib Ərdoğanın ikinci turda tamamlayacağı şübhə doğurmur. Bu isə artıq CHP-də öz işartılarını verməyə başlayıb".

Analitikin fikrincə, ikinci turdan sonra həm CHP-də, həm də "Millət İttifaqı"nın daxilində fikir ayrılıqları yaranacaq:

"Hətta seçki günü Akşener özü də əsəbləşmişdi. O bəyan etmişdi ki, mən sizə Kılıçdaroğlunu dəstəkləməyin lazım olmadığını demişdim. Yəni ikinci turda biz Akşener-Kılıçdaroğlu qarşıdurmasını görə bilərik. Yəqin batan gəmini ilk tərk edən İYİ Partiya olacaq.

Çünki onlar parlament seçkilərində də istədikləri nəticəni əldə edə bilmədilər. Hətta onlar MHP-ni sıradan silmişdilər və Ağ Partiyanın əvvəlki uğur əldə edəcəyini fikirləşmədilər. Lakin əksinə oldu. Hakim partiya olan "AK Parti" performansını qorudu və MHP xeyli səs topladı.

Bunun əksinə olaraq "İYİ Parti" istənilən nəticəni əldə edə bilmədi. Bu isə "Millət ittifaqı" daxilindəki gələcək təlatümlərdən xəbər verir".

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi

# Vətəndaş məmnunluğu artacaq

## Azərbaycanda dərman vasitələrinin istehsalı genişləndirilir, bu, qiymətlərə də müsbət təsir edəcək



**Dərman vasitələrinin bahalığı, həmçinin keyfiyyətinə inamın azlığı son zamanlar tez-tez müzakirəyə çıxarılan mövzulardır. Əhalinin narahatlığı anlaşılandır. Səhhətində müəyyən problem olanlar həkimə müraciət edir, müayinədən keçir və onlara müalicə təyin edilir. Di gəl ki həkimin təyin etdiyi müalicədə istifadə olunacaq dərman vasitələrini apteklərdə tapmaq bəzən problemə çevrilir. Tapılanda isə qiyməti heç də hər kəsin maddi durumuna uyğun gəlmir. Çətin tapılan dərmanların qiyməti isə daha baha olur.**

Dərman preparatlarının qiyməti, bir sıra dərman vasitələrinin qıtlığı, tapılmaması Milli Məclisdə də dəfələrlə müzakirə edilib, millət vəkilləri hökumətin bu problemə diqqət ayırmasının vacibliyini vurğulayıblar. Vətəndaşların sağlamlığı, səhiyyə xidmətlərinin səviyyəsinin yüksəldilməsi istiqamətində Azərbaycan dövləti məqsədyönlü addımlar atır. Əhalinin sağlamlığı, vətəndaşlara yüksək tibbi xidmətin göstərilməsi dövlət siyasətinin prioritet sahələrindən biridir. Bu mənada dərman vasitələri ilə bağlı ortaya çıxan problemlər də həllini tapmalıdır. Millət vəkilləri də hesab edir ki, bəzi dərman preparatlarının qıtlığı və qiymət yüksəkliyinin qarşısının alınması üçün daxili istehsalın artırılması əsasdır. Bu günlərdə vətəndaşları sevindirəcək məlumat yayılıb. Məlumata görə, ölkədə bir sıra dərman vasitələrinin istehsalı planlaşdırılır. Bunlar əsasən sosial əhəmiyyətli xəstəliklərin: onkoloji, kardioloji, endokrinoloji, hematoloji, antibakterial, virus və digər xəstəliklərin müalicəsində istifadə edilən dərman vasitələri olacaq. Bu barədə TƏBİB-in məlumatında qeyd olunub. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi - TƏBİB-in nümayəndə heyəti ”R-Pharm” əczaçılıq zavodunu ziyarət edib. Nümayəndə heyətinin tərkibində TƏBİB-in İcraçı direktorunun müavinləri Araz Nəsirov, Anar İsrafilov, Resursların idarə olunması departamentinin Dərman və tibb vasitələri şöbəsinin müdiri Elmin Quliyev təmsil olunublar. Zavoda təşkil edilən səfər mütəxəssislərə texnoloji proseslə yaxından tanış olmaq, eləcə də bütün mərhələlərdə istehsalat mexanizmi və prinsiplərini daha yaxşı anlamaq imkanı yaradıb. Zavoddakı əməliyyatların böyük əksəriyyəti avtomatlaşdırılmış istehsal sistemləri ilə həyata keçirilir. İstehsalat prosesi zamanı məhsulların keyfiyyətinə hər mərhələdə nəzarət edilir ki, bu da insan amilini minimuma endirməyə və buraxılan dərman vasitələrinin keyfiyyətinə zəmanəti təmin etməyə imkan verir. TƏBİB-in nümayəndə heyəti həm tablet, həm də infuziya formalarının hazırlanması üçün nəzərdə tutulan müxtəlif istehsal xətlərinin nümayişini də izləyiblər. Qonaqlar istehsalat zonaları ilə yanaşı, əczaçılıq zavodunun laboratoriyaları və hazır məhsul anbarı ilə tanış olublar. Səfər çərçivəsində qonaqlar bütün dünyada 2-ci tip şəkərli diabet xəstələrinin müalicəsində geniş istifadə olunan orijinal fransız preparatı Diabeton® MR-nin qablaşdırma prosesini müşahidə ediblər. TƏBİB rəhbərləri əczaçılıq zavodunun işini qiymətləndirib və respublika vətəndaşlarının keyfiyyətli dərman preparatları ilə təmin olunması sahəsində əməkdaşlığın inkişaf etdiriləcəyinə ümidvar olduqlarını bildiriblər. ”R-Pharm” zavodunun məhsul istehsaletmə gücü ildə 250 milyon ədəddən çoxdur. Burada bir sıra sosial əhəmiyyətli xəstəliklərin: onkoloji, kardioloji, endokrinoloji, hematoloji, antibakterial, virus və digər xəstəliklərin müalicəsi üçün dərman vasitələrinin istehsalı planlaşdırılır. O cümlədən Hepatit C, şəkərli diabet, vərəmdən, eləcə də onun aqressiv davamlı formalarından əziyyət çəkən xəstələr də qabaqcıl terapiyadan yararlana biləcəklər. Məlumatlarda bu da bildirilir ki, ötən müddət ərzində icbari tibbi sığorta üzrə vətəndaşlara göstərilən xidmətlər zərfində də artım müşahidə edilib. Ötən ay ərzində Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyində fəaliyyət göstərən ”Yeni klinika” tibb müəssisəsinə icbari tibbi sığortanın xidmətlər zərfi çərçivəsində müraciət edən vətəndaşlara göstərilən ambulator tibbi xidmətin sayı 16 faiz artaraq 55 min 50-yə çatıb. Aprel ayı ərzində icbari tibbi sığorta çərçivəsində tibb müəssisəsinə ambulator tibbi xidmət üçün 12 min 630 nəfər müraciət edib. Mart ayı ilə müqayisədə stasionar tibbi xidmət üçün ”Yeni klinika”ya müraciət edənlərin sayı artaraq 414-ə çatıb. Əməliyyat olunan pasiyentlərin sayı isə 339-dan 410 nəfərə çatıb. Qeyd edilir ki, ”Yeni klinika” tibb müəssisəsində 2022-ci il iyunun 6-dan etibarən icbari tibbi sığorta sistemi tətbiq olunur. Hər bir Azərbaycan vətəndaşı icbari tibbi sığorta ilə xidmətlər zərfinə daxil olan bütün tibbi xidmətlərdən ödənişsiz istifadə edə bilər. Ümumilikdə 300-ə yaxın həkim və tibbi heyətin çalışdığı Cənubi Qafqazın ən böyük tibb müəssisəsi hazırda ümumi cərrahiyyə, terapiya, təcili və təxirəsalınmaz tibbi yardım, reanimasiya şöbələri və poliklinikadan ibarətdir. Poliklinikada, eyni zamanda urologiya, kardiologiya, ümumi cərrahiyyə, ürək-damar cərrahiyyəsi, neyrocərrahiyyə, LOR, qastroenterologiya, radiologiya, revmatologiya, endokrinologiya, ginekologiya, nevrologiya və pediatriya şöbələri poliklinik olaraq fəaliyyət göstərir.

Qeyd edək ki, ”Dərman vasitələri haqqında” qanuna edilən dəyişiklik Milli Məclisdə müzakirələrdən sonra birinci oxunuşda təsdiq edilib. Dəyişikliyə əsasən, qanunun 6.6-cı maddəsi yeni redaksiyada verilir. Yeni redaksiyada qeyd edilir ki, müxtəlif dərman vasitələrinin eyni əmtəə nişanı adı altında (eyni istehsalçının (və ya həmin istehsalçının lisenziyası əsasında istehsal olunmuş) eyni əmtəə nişanı adı altında, lakin təsiredici maddənin dozası, farmasevtik forması, ticarət qablaşdırması və ya qablaşdırma miqdarı fərqli olan dərman vasitələri istisna olmaqla) dövlət qeydiyyatına alınmasına yol verilmir. Hazırda isə eyni maddədə ”müxtəlif dərman vasitələrinin eyni ticarət adı altında dövlət qeydiyyatına alınmasına yol verilmir” kimi qeyd edilir. Dərman vasitələrinin istehsalı və qiymətlər barədə açıqlama verən Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov bildirib ki, ölkəmizə dərman idxalı edən təşkilatların gətirdikləri dərman preparatlarının sənədləşdirilməsi, qeydiyyatdan keçirilməsi və lizenziyalaşdırılmasının asanlaşdırılmasına və sadələşdirilməsinə xidmət edən bu dəyişiklik bəlli bir müddətdən sonra həm qiymətə, həm də keyfiyyətə müsbət təsir göstərəcək. ”Son dəyişikliyə əsasən, hər hansı bir kimyəvi maddənin istehsalı ilə məşğul olan şirkətin hər hansı bir preparatı qeydiyyatdan keçibsə, həmin tərkibli digər növ və ölçü vahidi olan preparatların da qeydiyyatdan keçmədən ölkəyə gətirilməsi kimi bir asanlaşdırılma həyata keçirildi. Bu gün dövlətin siyasəti də ölkədə dərman preparatlarının keyfiyyətinin nəzarətdə saxlanılması ilə yanaşı, həm də qiymətlərin optimallaşdırılması məqsədi daşıyır. Bu, Prezident tərəfindən həyata keçirilən dövlət səhiyyə siyasətinin tərkib hissəsidir. Dünya təcrübəsində də bilinir ki, bu sadalanan məqsədlərə çatmanın ən asan yollarından biri də rəqabət mühiti və bolluğun yaradılması ilə mümkündür. Rəqabətin yaradılması keyfiyyətin artırılması ilə nəticələnməkdədir. Qeydiyyatın asanlaşdırılması yolu ilə əldə olunan bolluq isə qiymətin optimallaşdırılmasına imkan verəcək. Bu iki metodu ölkəmizdə tətbiq etmək aidiyyəti qurumlar qarşısında duran ən önəmli vəzifələrdən biridir və bu dəyişikliklər ilə gələcəkdə daha böyük uğurlara nail ola bilərik”.

**İcbari tibbi sığorta paketinə daxil olan xidmətlərin getdikcə genişlənməsi, dərman preparatlarının istehsalına başlanacağı barədə fikirlərini ”Şərq”lə bölüşən həkim-terapevt Şahvələd Məmmədov səhiyyə sahəsində aparılan islahatları uğurlu adlandırdı:**

- Dərman vasitələrinin çatışmazlığı, bəzi preparatların satışda olmaması, tapılmaması, qiymətlərin də yüksək olması vətəndaşları nə qədər narahat edirsə, biz həkimləri də bir o qədər narahat edir. Hər bir həkim istəyər ki, pasiyentin sağlıq problemini qısa zamanda həll edə bilsin. Bunun üçün müasir müayinə üsulları, tibbi avadanlıqlar nə qədər vacibdirsə, müalicə mərhələsində təyin edilən dərman vasitələri də bir o qədər vacibdir. Bəzən pasiyentə müalicə kursu təyin edilir, amma həmin dərmanlardan hansınınsa tapılmadığını, ya da qiymətinin baha olduğunu bildirirlər. Həkim bu vəziyyətdə dərman vasitəsini digəri ilə əvəz etmək məcburiyyətində qalır. Bu isə bəzən istənilən nəticənin əldə edilməsini gecikdirir. Çox yaxşı haldır ki, sosial yönümlü bir sıra xəstəliklərin müalicəsində istifadə ediləcək dərman preparatlarının ölkəmizdə istehsalına başlanacaq. Bu məni çox sevindirir. Məlumdur ki, dərman vasitələri ilə bağlı yerli istehsal genişlənsə, qiymətlərə də müsbət təsir edəcək. Vətəndaş məmnunluğu da artacaq, insanların səhhətindəki problemlərin daha çevik və keyfiyyətli həllinə nail olacağıq.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Bakıda dəhşət...

## 13 yaşlı qız 37 yaşlı kişi ilə nişanlanıb



*Mehriban Zeynalova hesab edir ki, bu hadisə azyaşlı qıza qarşı törədilmiş cinayətdir*



**Bakıda 13 yaşlı qız 37 yaşlı kişi ilə nişanlanıb. Hadisə paytaxtın Sabunçu rayonunda baş verib. Qohumlar arasındakı razılıq nəticəsində 13 yaşlı qız anasının boşanmış dayısı oğluna nişanlanıb.**

Adı məxfi saxlanılan 13 yaşlı qız bildirib ki, nişanlanmağını ailəsi istəyib, özü isə oxumaq həvəsindədir. Lakin 3-cü sinfə qədər dərsə gedib, sonra valideynləri oxumağına icazə verməyib: ”Nişanlanmaq istəmirəm, oxumaq istəyirəm. Onlar istədilər, məndən icazə almadılar. Heç oğlanla danışmıram, istəmirəm”.

Qızın anası isə ”Həyat yoldaşımın psixoloji problemi var və həbsxanadadır. Hər zaman deyir ki, həbsdən çıxan kimi onu öldürəcəyəm. Anam da xəstədir, uşağa kim baxacaq? Bilirəm ki, cinayət işi daşıyıram” sözlərini söyləyib.

Qadın deyib ki, nişan indi olsa da, toy üçün övladının yaşının tamam olmasını gözləyəcəklər.

Oğlanın anası isə ”Nişanlanmaq evlənmək deməkdir? Gözləyəcəyik yaşı tamam olsun, sonra toy edək. Yiyəsi, anası və nənəsi verdi, mən də aldım. Dedilər ki, sahibsiz qızdır, başqası aparıb başına bir iş açar. Başqası nəsə edincə, ad olsun sizinki. Anası baldızımdır. Oğlumun bir arvadı olub, beşi olmayıb ki... Arvadı oturmadı, qaçıb getdi” sözlərini əlavə edib.

Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə 37 yaşlı kişi ilə nişanlanan 13 yaşlı qızın ailəsi ilə görüşəcək. Bu barədə ”Qaynarinfo”ya onun özü məlumat verib. K.Ağazadənin sözlərinə görə, 13 yaşlı qızın təhsil alması vacibdir: ”Biz çalışmalıyıq ki, qız təhsilini davam etdirsin. Bununla bağlı aidiyyəti qurumlara müraciət edəcəyəm. Eyni zamanda qızın reinteqrasiyası və təhsili istiqamətində iş aparılması üçün ailəsi ilə görüşəcəm”.

Nəzərə alsaq ki, Azərbaycanda təhsil 9-cu sinfə qədər icbaridir, o zaman, 13 yaşında bir uşağın bu illər ərzində məktəbdən necə yayınması suallar doğurur.

Məsələ ilə bağlı Elm və Təhsil Nazirliyi verdiyi açıqlamada bildirib ki, uşağın təhsildən yayınmasında birbaşa valideynləri məsuliyyət daşıyır.

Bakı şəhəri üzrə Təhsil İdarəsindən bildirilib ki, sözügedən yeniyetmə Bakı məktəblisi deyil. Ailə Sabunçu rayonu ərazisində kirayədə qalır. Məsələ müvafiq qurumların diqqətindədir.

İnsan Hüquqları üzrə Maarifləndirmə İctimai Birliyinin sədri İradə Cavadova isə ”Şərq”ə açıqlamasında deyib ki, hər şeydən əvvəl uşaqları məktəbdən ayıran valideynlərə cinayət işi qaldırmaq lazımdır ki, hər kəsə görk olsun: ”Azyaşlı qızları, daha doğrusu, uşaqları evləndirən valideyn də, onunla evlənən şəxs də cinayətkardır. Kaş ki, bununla bağlı qanunvericilikdə dəyişiklik edilə və azyaşlı qızlarını evləndirmək niyyətində olan valideynlər də, onlarla nişanlanmağa razılıq verən kişilər də həbs edilə. Öləndə qızının taleyindən narahat olan bir ana 13 yaşlı qızını necə 37 yaşlı kişiyə əmanət edə bilər ki? Bütün bunlar sadəcə bəhanədir. Nəinki 13, hətta 16-17 yaşlı qızların evlənməsini belə normal hesab etmirəm. Qanunvericilikdə istisna hallarda 17 yaşda nikaha icazə verilməsi belə ləğv olunmalıdır”.

İ.Cavadovanın sözlərinə görə, hüquq-mühafizə orqanları konkret hadisə ilə bağlı tədbir görməlidir. Bir çox hallarda hüquq-mühafizə orqanları ailə-məişət daxilindəki problemləri ciddi qəbul etmir və heç bir tədbir görmür. Bu istiqamətdə ciddi addımlar atılmalı və müvafiq tədbirlər görülməlidir.

**”Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova isə hesab edir ki, bu hadisə azyaşlı qıza qarşı törədilmiş cinayətdir. Bunun başqa bir adı yoxdur:** ”Amma valideynlər öz əməllərinə haqq qazandırırlar ki, mən uşağımı qoruyuram. Başa düşmürlər ki, bu cür qoruma üsulu heyvani instinktdən başqa bir şey deyil. Anlamırlar ki, onların övladlarını qorumaq üçün seçdikləri bu yol övladlarını gələcəkdə daha dəhşətli bəlalara aparıb çıxara bilər. Hələ toy olmayacaq, sadəcə olaraq, ad eləmişik kimi ifadələr isə bəhanədir.

Hesab edirəm ki, belə halların qarşısının alınmasında gənc dəstək qruplarıı yaratmalıyıq. Eyni zamanda uşaqların və gənclərin təhsilə marağını artırmalıyıq. Belə hallarla qətiyyətlə mübarizə aparmaq lazımdır. Qanunlar nə qədər sərtləşsə də, yenə də nələrsə ortaya çıxır. Mənə elə gəlir ki, həmin ərazilər üzrə ictimai qınaq kampaniyalarını çox ciddi şəkildə işə salmalıyıq. Cəmiyyət özü bu məsələdə aktiv iştirakçıya çevrilməlidir. Bu insanların toylarına getməməklə erkən nikahları boykot edə bilərik. Belə adamlar az-çox cəza alıb”.

M.Zeynalova qeyd edib ki, erkən nikahlarda qızlarımızın əsasən yaşlı insanlarla izdivac qurması qeydə alınır: ”Guya ki, bu, qızın gələcəyini sığortalayır, ailənin möhkəm olmasına əminlik hissi yaradır. ”Cavana gedən yumruq yeyər, qocaya gedən quyruq” misalı burada yerinə düşər. Amma göründüyü kimi, belə olmur”.

**Təhsil eksperti Kamran Əsədov isə 13 yaşında bir uşağın qanunla nəzərdə tutulmuş icbari təhsilini tamamlaya bilməməsində bilavasitə Elm və Təhsil Nazirliyinin özünü günahlandırıb.** ”Ednews”a açıqlama verən ekspert Nazirliyi ittiham edərək bildirib ki, hər bir şagirdin təhsili, təhsilə cəlb olunması və təlim göstəriciləri ilə bağlı məsuliyyət birbaşa nazirliyin üzərinə düşür: ”Elm və Təhsil Nazirliyinin bu açıqlaması boş söz yığınından başqa bir şey deyil. Azərbaycan Respublikasının Konstitusiyası və ”Təhsil haqqında” Qanuna görə, ölkəmizdə təhsil icbaridir və hər bir şagirdin icbari təhsilə cəlb olunmasına cavabdeh olan qurum nazirliyin özüdür. Onlar öz vəzifə öhdəliklərini unudublar. Onu da qeyd edim ki, uşaqların təhsildən yayınaraq erkən nikaha cəlb edilməsi Elm və Təhsil Nazirliyinin öz vəzifə funksiyalarını yerinə yetirməməsindən qaynaqlanan bir problemdir”.

K.Əsədovun sözlərinə görə, mövcud qanunvericiliyə görə, hər bir məktəb direktoru məktəbin yerləşdiyi ərazidə hər bir şagirdin icbari təhsilə cəlb edilməsi ilə bağlı öhdəlik daşıyır: ”Əgər hər hansı uşaq təhsil prosesindən yayınırsa, bununla bağlı icra hakimiyyətlərində yaradılmış qəyyumlar şurasına məlumat verilməlidir. Əgər valideyn öz öhdəliyini, yəni övladının təhsil almaq hüququnu təmin edə bilmirsə, həmin şəxsin hətta valideynlikdən məhrum edilməsi məsələsi müzakirəyə çıxarılır və iş məhkəməyə göndərilir. Valideyn övladı qarşısında vəzifələrini yerinə yetirməyə borcludur, bunu təmin etmək isə birbaşa Elm və Təhsil Nazirliyinin, orta məktəb direktorlarının funksiyasıdır. Əgər uşaq 3-cü sinifdən sonra məktəbə gəlmirsə, bunun birbaşa günahkarı valideyn olduğu qədər, həm də məktəb rəhbərliyi və nazirlikdir. Erkən nikaha cəlb edilirsə, günahkar yenə də həmin qurumlardır. Bu onu göstərir ki, müvafiq qurumlar ancaq mənasız tədbirlər keçirməklə, selfi çəkdirməklə məşğuldur. Nazirlik təhsillə bağlı uğurlarını necə paylaşırsa - sanki bu onların öz fəaliyyətidir, uğursuzluqlar da onlarındır, bunu niyə etiraf etmirlər?! Elm və Təhsil Nazirliyi öz vəzifə öhdəliklərini təəssüf ki, yerinə yetirməməyə davam edir”.

**Şəymən**

# Süni məhdudiyyətlər heç bir halda rəqabət yaratmır

## “Trendyol”dan sifarişlərlə bağlı hansısa problemlərin yaradılması məqsədəuyğun deyil




**Bir neçə gündür ”Trendyol” sifarişləri birbaşa Azərbaycana çatdırmağa başlayıb.**

Bu yenilik müştərilərin işini asanlaşdırsa da, bəzi geyim markaları ölkəyə göndəriş həyata keçirməyəcək. Buna səbəb kimi həmin şirkətlərin Azərbaycanda geniş ticarət şəbəkəsinin olması göstərilir. ”Trendyol”un bu qadağası müştərilər tərəfindən birmənalı qarşılanmayıb. Sosial şəbəkələrdə ”Trendyol”a bu qadağanın ölkəmizdə monopoliya meyillərinin təzahürü olduğu iddia olunur.

Ekspertlər isə hesab edir ki, bəzi geyim markalarının ölkəyə göndərişinin birbaşa həyata keçirilməməsi verilmiş göstərişlə bağlı ola bilər. İqtisadçı-ekspert Natiq Cəfərlinin sözlərinə görə, bir çox geyim markalarının Gürcüstanda da ticarət şəbəkələri var: ”Düşünmürəm ki, ”Trendyol” Gürcüstana birbaşa çatdırılmada hansısa geyim markasına qadağa qoysun. Deməli, Azərbaycanla bağlı xüsusi bir qərar verilib. Bu, geyim markalarını Azərbaycana gətirib satan şəxslərin maraqlarına toxunmamaq məqsədi daşıyır”. İqtisadçı hesab edir ki, ”Trendyol” bu qərarı sərbəst qəbul etməyib, bu məsələdə ona müəyyən tapşırıq olub: ”Çünki ”Trendyol” bu məsələdə müştəri və gəlir itirir. Onun özünə qalsa, belə bir qərar verməsi mümkün deyil. Əgər belə davam edərsə, sifarişlər başqa ölkələr üzərindən veriləcək. Yaxud da ”Trendyol”un birbaşa çatdırılması xidmətindən istifadə edilməyəcək”.

**N.Cəfərli bildirib ki, bu gün ”Alibaba” kimi məşhur onlayn satış platforması Çindən də geyim markaları satışını həyata keçirir:** ”Onda belə çıxır ki, biz sabah ”Alibaba” ilə tərəfdaşlığa başlasaq, Çindən geyim markalarının daşınmasına məhdudiyyət qoyulmalıdır ki, həmin ölkənin malları ”Sədərək” Ticarət Mərkəzində də satılır? Bu, məntiqsiz addımdır. Bu qərar Azərbaycanda yerli ticarət şəbəkələrinin maraqlarını müdafiə üçün verilmiş çox səhv qərardır”.

**İqtisadçı-ekspert Eyyub Kərimli isə ”Şərq”ə açıqlamasında deyib ki, süni məhdudiyyətlər heç bir halda rəqabət yaratmır. ”Trendyol”dan sifarişlərlə bağlı hansısa problemlərin yaradılması məqsədəuyğun deyil:** ”Trendyol”dan Azərbaycana sifariş tətbiqi yeni olduğu üçün insanlarımız onun fəaliyyətinə öyrəşməyib və yenə də öz sifarişlərini əvvəlki qaydada davam etdirirlər.

Əgər yaranan problem sadəcə karqo şirkətləri vasitəsilə edilən sifarişlərlə bağlıdırsa, bunlar artıq süni məhdudiyyətlərdir. Bu isə geyim sahəsindəki inhisarçıların maraqlarından qaynaqlanır. Problem tənzimlənməli və elə bir rəqabət mühiti formalaşmalıdır ki, istehlakçı zərər görməsin”.

Şəymən

# Şikayətə baxılıb

## Ana və iki azyaşlı övladını öldürən ömürlük məhkumla bağlı qərar verilib



**Ana və iki azyaşlı övladını qətlə yetirməkdə təqsirli bilinərək ömürlük məhkum edilmiş Əhəd Əliyevlə bağlı hökmdən verilmiş şikayətə baxılıb.**

APA xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsində hakim Fərid Əyyubovun sədrliyi ilə baxılan iş üzrə qərar elan olunub.

Qərara əsasən, Əhəd Əliyevin şikayəti əsassız sayılaraq rədd olunub, birinci instansiya məhkəməsinin hökmü qüvvədə saxlanılıb.

Xatırladaq ki, hadisə ötən ilin fevral ayında paytaxtın Nizami rayonunda qeydə alınıb.

Fevralın 20-də 1983-cü il təvəllüdlü Gülnar Qaraxanova və iki azyaşlı övladının kirayə yaşadıqları evdə kəsici-deşici alətlə aldıqları xəsarətlərdən ölmələri faktı ilə bağlı rayon prokurorluğuna məlumat daxil olub.

Həyata keçirilmiş təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətin zərərçəkmişin qohumu - 1981-ci il təvəllüdlü Əhəd Əliyev tərəfindən şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı törədilməsinə əsaslı şübhələr müəyyən edilib.

Əhəd Əliyevə qarşı Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla adam öldürmə), 120.2.7 (iki və ya daha çox şəxsi öldürmə), 120.2.9 (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı qəsdən öldürmə), 120.2.11 (quldurluq, hədə-qorxu ilə tələb etmə, terrorçuluq və ya banditizmlə əlaqədar adam öldürmə), 181.2.4(Quldurluq, xeyli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə), 181.2.5 (Quldurluq, silah və ya silah qismində istifadə edilən əşyalar tətbiq edilməklə törədildikdə), 181.3.3 (Quldurluq, zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmaqla törədildikdə) maddələri ilə ittiham irəli sürülüb. Məhkəmə istintaqı zamanı məlum olub ki, təqsirləndirilən şəxs əvvəllər müəllim işləyib, 2007-2014-cü illərdə isə Saatlı rayonu, Novruzlu kənd məktəbinin direktoru olub. Hadisə baş verən vaxt ev sahibi Fəsahət Qaraxanov Rusiyada olub.

Əhəd Əliyev Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə ömürlük azadlıqdan məhrumedilib.



### “Bizi o biri dünyada..."

“Toppuş bacı”nın ərinin paylaşımı hamını kövrəltdi

**Mərhum Əməkdar artist Tünzalə Əliyevanın həyat yoldaşı Röyal növbəti paylaşımı ilə izləyicilərini kövrəldib.**

”Şərq” xəbər verir ki, Mədinədən qızı Zəhranın fotosunu paylaşan Röyal bu sözləri yazıb: ”Bura Peyğəmbərimizin dəfn edildiyi Mədinə şəhəri və islam tarixinin 2-ci məscididir. Gecə hotelə gəlmişdik, soruşdum ki, nə dua etdin? Dedi ki, anam üçün dua elədim, o, yaxşı insan idi, yeri yaxşı olsun.

Özümə sual verdim ki, görəsən, mən qocalıram, ya Zəhram belə tez böyüdü. Bəzən mənə deyir ki, sən anamı məndən əvvəl tanıyırsan. Ondan danışa bilərsən? Xatırlayırsan?

Deyirəm, heç unutmadım, ilk tanış olduğumuz gündən. 2014-cü il fevralın 7-də o gözəl, nur üzlü xanımı tanıdım, sevdim. Həmin ilin iyulun 7-də ailə qurdum. Və 2023-cü ilin yanvarın 22-i isə...

Mən Kəbəni təvaf edərkən Rəbbimə dedim, utanıram səndən nəsə istəməyə. Çünki mənə hər şey vermisən. Məni əməlisaleh insanlardan et və xanımımı sənə tapşırdım. Bizi o biri dünyada da bir yerdə et. 136 gündür ki, mən sənsizəm”.

Samirə

### Könül Kərimovanın görüntüsü bəyənilmədi



**Əməkdar artist Könül Kərimovanın növbəti paylaşımı diqqət çəkib.**

”Şərq” xəbər verir ki, sənətçi makiyaj etdirdikdən sonra fotosunu izləyiciləri ilə bölüşüb. O, paylaşma ”Bizi həzm edə bilməyənlərə gəlsin” şərhini yazıb. Lakin Kərimovanın bu görüntüsü əksər istifadəçi tərəfindən bəyənilməyib.

Samirə

# "Tüpürüm yazılarına da..."

## Cavanşir Məmmədov “öldü” xəbərinə kəskin reaksiya verdi



**Sosial şəbəkələrdə və mediada ”Cavanşir Məmmədov toyda öldü” başlığı ilə xəbərlər yayılıb.**

Lakin rəhmətə gedən Əməkdar artist Cavanşir Məmmədov yox, başqa bir vətəndaşdır. Oxucular isə həmin şəxsin müğənni Cavanşir Məmmədov olduğunu düşünərək xəbərə daxil olur və bunun xəbəri oxutmaq üçün bir ”fənd” olduğunu anlayırlar. Əksəriyyət mətbuatı bu sayaq sərlövhələrdən çəkinməyə çağırır.

**”Şərq” məsələ ilə bağlı Əməkdar artistin özü ilə əlaqə saxlayıb. O, sözügedən xəbərlərə qəzəblənərək bunları söyləyib:**

”Mən açıqlama vermirəm. Öldü? Ölməmişəm ki? Başqa adamdır, bilmirəm. Sağam. Yazıblar, cəhənnəmə yazsınlar.

Yazan adam məhkəmədə cavab verə bilər. Bunu məndən eşitdiz. Yazan adamı tapın. Nə münasibət öyrənəcəksiz? Görürsüz ki, danışan özüməm. O adamdan danışın ki, utansın, yerə girsin ki, sənətkarı diri-diri öldürürsən. Necə ki, Zeynəb Xanlarova və başqaları haqda belə xəbərlər yaydılar. Mənim ömrümü uzadıb, onun yalanı ortaya çıxıb. İlhamə Quliyeva da sağ olanda belə şeylər çıxırdı. Bəsdirin! Tüpürüm yazılarına da...”.

Samirə Ərəblinskaya

# Aynişan sükutu pozdu

## “Sevdiyinin qədrini bilmək...”



**Reper Orxan Zeynallı ötənilki rekord qıran konsertlərindən 6 ay sonra yenidən səhnəyə çıxıb.**

”Şərq” xəbər verir ki, 6 mindən çox insan qarşısında çıxış edən müğənni ”Gemini” adlı gecəsində hitlərini ifa edib. Anşlaqla keçən konsertə ”Hər şey zordur. Məkanın sahibi buradadır” sözləri ilə başlayan Orxan fanatlarına onu diqqətdə saxladıqları üçün minnətdarlığını bildirib.

Ümumilikdə 26 mahnı ifa edən Orxana gecədə Röya Miriyeva, Rizvan Əliyev, Tomris, Okaber, Çinarə Məlikzadə, PRoMete, Vüsal Qasımov, Samir Səlimov, Aynişan Quliyeva kimi sənətçilər yoldaşlıq edib.

Okaber və Aynişan Quliyeva illər sonra ilk dəfə reperin səhnəsinə qonaq olublar. Orxanın tədbirdəki vokalistliyini gənc ifaçı Nərgiz Məcidli edib.

İllər ərzində yazdığı və rəğbət görən mahnılarını səsləndirən Zeynallı ”Bütün nailiyyətləri, uğurları qazanmaq olar, ancaq bunu sevdiyin insanla bölüşəndə məna qazanır. Sevdiyinin qədrini bilmək lazımdır, sonra gec olacaq” sözləri ilə diqqət çəkib.

Zeynallı konsertdə keçmiş HOST qrupunun üzvlərinə, xüsusilə Elxan Zeynallı (Qaraqan) və PRoMete-yə təşəkkür edib.

Tamaşaçıların reperlə birgə mahnılar səsləndirdiyi konsert rəngli görüntülərə səhnə olub.

Samirə Ərəblinskaya



**Təbrik edirik!**

**Hörmətli Elif müəllim Mürsəlov,** sizi 60 yaşınız münasibətilə səmimi qəlbdən təbrik edirik. Sizə möhkəm can sağlığı, uzun ömür, bol və tükənməz yaradıcılıq uğurları arzu edirik.

**Hörmətlə şair Vəli Xramçaylı, Məmmədəli, şair Firdovsi.**

# Azərbaycana turist axını güclənir

## Pandemiyadan sonra belə olmamışdı



**Bu yay mövsümündə ölkəmizə gələn turistlərin sayında artım olacaq.**

Bunu Trend-ə Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının (ATAA) sədr müavini Əhməd Qurbanov deyib.

Onun sözlərinə görə, 2020-ci ilin əvvəllərindən dünyanı təhdid altında saxlayan COVID-19 pandemiyası qısa bir zamanda turizm sektorunu iflic vəziyyətinə salmışdı.

”Turizm pandemiya şəraitində ən çox zərər çəkmiş sahələrdən biri idi. Lakin hazırda qadağaların demək olar ki, çoxu aradan qaldırılıb. Əlbəttə ki, bunun Azərbaycana da müsbət təsirləri olacaq. Bu da turizmin dirçəlməsinə təkan verir. Yay turizm mövsümünün turizm sənayemiz üçün uğurlu olacağını düşünürəm. Bu ilin yay mövsümündə xarici turistlərin sayında da xeyli aktivlik müşahidə olunacaq. Ölkəmizə əsasən Rusiya, Avropa və region ölkələrindən daha çox turistin gələcəyini planlaşdırırıq. İstirahət üçün ölkəmizə 3-4 günlük gələn turistlər əsasən paytaxtda və paytaxta yaxın rayonlarda dincəlməyə üstünlük verirlər. Region olaraq əsasən İsmayıllı, Qəbələ, Şəki, Qubada dincəlməyə üstünlük verirlər. Əgər turistin ölkəmizdə qalma müddəti bir həftə və ya daha çoxdursa Qax, Zaqatala, Balakən rayonlarına üz tuturlar.”

**Ə.Qurbanov bildirib ki, bu ilin ilk beş ayına nəzər salsaq pandemiya dövrünün eyni vaxtı ilə müqayisədə ölkəmizə gələn turist sayı kəskin artıb.**

”Bu da onu deməyə əsas verir ki, yay mövsümündə xaricdən gələn turistlərin sayında artım olacaq. Yay mövsümüylə əlaqədar iyun ayının ilk ongünlüyündən ölkəmizə gələn turistlərin sayının artmasının şahidi olacağıq. Ölkəmizə turist axının artmasının əsas səbəblərindən biri də Formula 1 yarışlarının ölkəmizdə keçirilməsidir. Belə ki, yarışlar ölkəmizin dünyada tanınmasında və turistlərin cəlb olunmasında xüsusi rol oynayır”, - deyə o qeyd edib.

**”AVTO-QARANT” Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə**

30.06.2022-ci il tarixində saat 17:00-da Bakı şəhəri, Xətai rayonu, Mingəçevir küçəsi 40 ünvanında ”AVTO-QARANT” ASC-nin Səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər

1) 2022-ci ilin yekununa dair hesabat və balans hesabatının təsdiqi.

2) Cəmiyyətin illik mənfəətin bölüşdürülməsinin müzakirə edilməsi.

”AVTO-QARANT” ASC-nin Müşahidə şurasının sədri Bağırov Ədalət Əziz oğlu

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

**Texniki heyət:**
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti,
“Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

**Hesab nömrəsi:**
“Muğanbank” ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MU-GA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 1262



## Yenə icazəsiz getdi

Messinin paylaşımı böyük əks-səda doğurdu

**PSJ-nin ulduzu Lionel Messi karyerasında yeni səhifə açmağa hazırlaşır. "Barselona"dan sonra PSJ-yə yollanan argentinalı ulduz fransız nəhəngindən ayrılmağa hazırlaşır.**

"Şərq" xəbər verir ki, Səudiyyə Ərəbistanı komandalarından fantastik təkliflər alan və "Barselona"ya dönəcəyi də söz mövzusu olan Lionel Messinin son paylaşımı diqqət çəkib.

PSJ-nin "Loryen"ə uduzduğu və böyük böhrana səbəb olduğu matçdan sonra klubdan icazəsiz Səudiyyə Ərəbistanına gedən Lionel Messi bu səfərini təkrarlayıb.

Lionel Messi növbəti dəfə Səudiyyə Ərəbistanına gedərkən ailəsi ilə birlikdə ölkə turuna çıxıb. Təcrübəli ulduz həmin anları sosial media hesabında paylaşıb. "Səudiyyə Ərəbistanının tarixi mərkəzi olan Diriyahı ailəmlə birlikdə kəşf edərək gözəl bir gün keçirdim", - deyə Messi bildirib. Argentinalı futbolçunun sözügedən paylaşımı qısa müddətdə böyük əks-səda doğurdu.

**Turan**

## UEFA Ermənistana cərimələr yağdırdı

Türkiyə matçında baş verənlər qəbul olunmur



**AVRO-2024-ün seçmə mərhələsində İrəvanda keçirilən Türkiyə matçında baş verən hadisələrə görə UEFA ev sahibi Ermənistanı 6 müxtəlif maddə ilə cərimələyib.**

"Şərq" xəbər verir ki, UEFA futbol üzrə Avropa çempionatının seçmə mərhələsində keçirilən Ermənistan-Türkiyə matçına görə ev sahibi komandaya müxtəlif cəzalar verib. Martın 25-də İrəvanda keçirilən oyunda Türkiyə Orkun və Kərəmin qolları ilə 2:1 hesabı ilə qalib gəlib.

Qarşılaşmadan əvvəl təşkil edilən mərasimdə Türkiyənin İstiqlal Marşı oxunarkən baş verən fit səsi televiziyada da öz əksini tapıb. UEFA Ermənistanı "Dövlət himnləri zamanı problem" adı altında 10 min avro cərimələmək qərarına gəlib. UEFA İntizam Komitəsinin qərarına əsasən, Ermənistana qarşı tətbiq edilən digər cərimələr və bu cəzalara səbəb olan hadisələr aşağıdakı kimidir:

**Təhqiredici təxribatçı mesaj: 15 min avro.**
**Məşəlin yandırılması: 11.500 avro**
**Meydana atılan material: 11 min 500 avro.**
**Pilləkən boşluqlarının bloklanması: 8 min avro.**
**Komandanın nalayiq davranışı: 6 min avro.**

**Turan**

## Bakıda 5 min manata cadu kitabı satılır




**Bakıda cadu kitabı satışa çıxarılıb.**

Lent.az bildirir ki, bu barədə elan saytlarının birində məlumat yerləşdirilib.

Bildirilib ki, cadu kitabı kimi tanınan "Qara magiya" 5 min manata satılır. Qeyd olunub ki, həmin kitab Romada yəhudi bir şəxsdən alınıb.

## Bu yay tarixin ən isti fəsli olacaq



**2023-cü ilin yayı iqlim tarixində bu vaxta qədər yaşanmış 10 isti, qaynar yaydan biri olmağa iddialıdır. "Medicina" xəbər verir ki, iqlim dəyişiklikləri 2022-ci ildən başlayıb, bu il Avropa və Qərbi Asiyanın bütün ölkələrini əhatə edəcək. Ötən il bəzi ölkələrdən, xüsusən Avroasiya materikində şimal hissələrdə soyuq hava kütləri hələ aktiv olduğundan yay elə də hiss olunmayıb. Bu il soyuq hava axınları daha da azalacaq. Ona görə də 2023-cü ilin yayı dözülməz istiləri ilə yadda qala bilər. Buna isə dövlətlər və ölkələr hazır olmalıdır.**

## 81 yaşında bunu etdi

**O, jurnal tarixinin ən yaşlı modeli olub**



**81 yaşlı amerikalı yazar və iş qadını Marta Stüart "Sports Illustrated" jurnalı üçün kamera qarşısına keçib.**

**Axşam.az xəbər verir ki, nəşrin məlumatına görə, o, jurnal tarixinin ən yaşlı modeli olub. Çəkiliş fotoqraf Reuven Afanador tərəfindən aparılıb.**

## Reperin Rianna ilə nadir fotoları maraqla qarşılandı



**Reper "A$AP Rocky" özünün "Instagram" hesabından sevgilisi Rihanna və kiçik oğlu ilə nadir ailə fotolarını paylaşıb.**

**Oxu.az xəbər verir ki, kadrlar cütlüyün ilk övladının bir yaşının tamam olması münasibətilə yayımlanıb. Reper silsilə fotolarına "Birinci ad günün mübarək RZA" şərhini yazıb. Xatırladaq ki, bir il əvvəl Rihanna və "A$AP Rocky" ilk dəfə valideyn olublar. Cütlük hazırda ikinci övladlarını gözləyir.**



# Gündə bir Aspirin hər dərdə dərmandır?

## Türk professor sirləri açdı



**Başın ağrıyır, Aspirin iç. Qızdırman var, Aspirin iç. Qrip olmusan, Aspirin iç  Rahatsızlıq zamanı dərhal bir həb Aspirin içib, qısa zamanda effektini görənlər az deyil. Bəlkə buna görədir ki, Aspirin az qala bütün xəstəliklərdə əsas dərman vasitəsi hesab edilir. Bəzi təbiblər hətta hər gün 1 həb Aspirin qəbul etməyi tövsiyə edir. "Milliyet.com.tr" Aspirinin faydaları və zərərləri barədə ürək-damar cərrahı professor doktor Yavuz Yörükoğlunun fikirlərinə yer verib.**

Professor bildirib ki, Aspirin 1800-cü illərin ortalarında alman kimyaçı Felix Hoffmanın Aspirinin əsas maddəsini təşkil edən asetilsalisilikasiti kəşf etməsindən sonra yaranıb. Lakin bu dərmanın kökləri qədim şumerlərə qədər gedib çıxır. Dərmanın hazırlanmasında söyüd ağacının şirəsindən istifadə edilib. Şumerlər eramızdan min il əvvəl söyüd ağacının şəfalı olduğunu kəşf ediblər və onu şirəsindən dərman vasitələri düzəldərək müxtəlif xəstəliklərin müalicəsində istifadə ediblər. 1800-cü illərdə isə Almaniyada kimyaçılar söyüd ağacının qabığından asetilin maddəsi əldə ediblər. Lakin onu saflaşdıra bilməyiblər. Buna Felix Hoffman nail olub. Daha sonra da dərman istehsalçısı bir şirkət Aspirin istehsalına başlayıb. Aspirindən həddindən artıq istifadə edənlərin qanında duruluq əmələ gəlməsi isə həkimlərin bu dərmandan yerli-yersiz istifadəni qadağan etmələriylə nəticələnib. Aspirin 20-ci əsrin ən böyük kəşflərindən biri hesab edilir. Məhz qanda duruluğu artırdığı üçün o, ürək-damar xəstəliklərinin müalicəsində geniş istifadə edilirdi. Y.Yörükoğlu bildirib kİ, amma ilkin olaraq Aspirin revmatizm xəstəliyinin müalicəsində istifadə edilib. İndi də bu dərman vasitəsindən müxtəlif səbəblərlə istifadə edilir. Dəri xəstəlikləri, iltihab əleyhinə, qaşınmalara, həşərat sancmalarına qarşı da Aspirinin faydalı olduğu bildirilir. Son illərdə Aspirinin bağırsaq xərçənginə qarşı da effektli olduğu təsdiqini tapıb. Məlum olub ki, müntəzəm Aspirin qəbul edənlərdə bağırsaq xərçənginə tutulma təhlükəsi 10 dəfə azdır. Əgər ailə üzvlərindən kimdəsə bağırsaq xərçəngi xəstəliyi olubsa, ailənin digər üzvlərinə önləm almaq məqsədilə Aspirindən istifadə etmək tövsiyə olunur. Y.Yörükoğlu qeyd edib ki, 45 yaşdan sonra hər kəs qanın qatılaşmasına qarşı önləm almalıdır. Yaxşı olar ki, 45 yaşdan yuxarı insanlar hər gün 100 mq. qan durulducu vasitə qəbul etsinlər. Professor Aspirinin zərərlərinin ola biləcəyini də qeyd edib: "Aspirin bir çox xəstəlikləri önləyə bilir. Lakin zərəri də yox sayılmaz. Xüsusən, mədəsində qastrit, mədə xorası olanlar, mədə turşuluğu yüksək olanlar Aspirin qəbul etməkdən çəkinməlidir. Bu dərman 99 faiz güvənli olsa da, 1 faiz təhlükəsi də var".

***Məlum olub ki, müntəzəm Aspirin qəbul edənlərdə bağırsaq xərçənginə tutulma təhlükəsi 10 dəfə azdır***

**Məlahət Rzayeva**




# 108 il sonra gün üzünə çıxdı

## Çanaqqalada şəhid məzarı tapıldı



**Dünya hərb tarixinə qəhrəmanlıq dastanı kimi yazılmış Çanaqqala savaşının igid əsgərlərinə aid məzarlıq 108 il sonra tapılıb. Məzarlıqda bir neçə şəhidin dəfn edildiyinə işarət edən daş yığınları və baş daşlarını əvəz edən lövhələr var.**

108 il sonra belə bir şəhidliyin üzə çıxması möcüzədir. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, bu haqda Çanaqqala On səkkiz Mart Universitetinin Atatürk və Çanaqqala Savaşlarını Araşdırma Mərkəzindən məlumat verilib. Mərkəzin müdiri, doktor Barış Borla və Tarix bölümü Türkiyə Cümhuriyyəti Tarixi kafedrasının müəllimi Barış Borlat, Hərbi tarix mütəxəssisi Ömər Arslan minə yaxın arxiv sənədi üzərində tədqiqat aparıb. Tədqiqat nəticəsində bugünədək itkin sayılan əsgərlərin, Çanaqqala savaşında ən gərgin mərhələ olan Conkbayırı süngü döyüşündə şəhid olduqları müəyyənləşib. Tapılan məzarlıq da məhz bu döyüşdə şəhid olmuş Osmanlı ordusu əsgərlərinə aiddir. Barış Borlat bildirib ki, Çanaqqala savaşının yaşandığı ərazidə şəhidliyin tapılmasıyla bağlı ən doğru mənbə Şevki Paşanın xəritəsidir. 1916-cı ildə bölgəyə gələn Şevki Paşa Çanaqqala savaşının yaşandığı sahənin xəritəsini çəkib. 43 səhifədən ibarət xəritənin bir bölümünü isə şəhidliklər təşkil edib. Lakin araşdırma aparan mütəxəssislər şəhidliklərin yetərli olmadığını, xəritənin hansısa hissəsinin çatışmadığını fərq edib. Belə qərara gəliblər ki, xəritədən kənar şəhidliklər də ola bilər. Araşdırmalar davam edib və Conkbayırı süngü savaşı zamanı şəhid olanların məzarlığı üzə çıxıb. "Belə bir şəhidliyi tapacağımızı bilmirdik. Bir əsrdən artıqdır, insanlar buradan keçib gedib, lakin buranın şəhidlik olduğunu bilməyiblər", söyləyən B.Borlat, Conkbayırı bölgəsində əcnəbi döyüşçülərin məzarlarının olduğunu, lakin türk şəhidliyinin olmasından xəbərsiz qaldıqlarını bildirib. Conkbayırı döyüşü avqustun 10-da olub. İndiyədək bu döyüşdəki şəhidlər haqqında heç bir bilgi əldə edilməyib. Bundan sonra isə şəhidlik ziyarətçilərini gözləyəcək. Şəhidlər hər zaman hörmətlə anılmağa layiqdirlər və onların xatirəsinə Şəhidlik Abidəsi ucaldılması gərəkdir.

**Məlahət**

## ABŞ-də yeni araşdırma

DNT-ni ayaq izlərindən və ya nəfəsdən aşkar etmək olar





**ABŞ-də alimlər aşkar ediblər ki, DNT nümunələri insanın çimdiyi sudan, nəfəsindən, hətta çimərlikdəki ayaq izindən də toplana bilər.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Florida Universitetindən bir qrup tədqiqatçı insanın DNT-si haqqında məlumatı artıq çimərlikdə qalan ayaq izlərindən, otaqda tənəffüs edilən havadan və ya dənizdə üzərkən qalan tüpürcək kimi tullantılardan aşkar edə biləcəyini ortaya qoyan bir kəşf edib. Nəticələri "Nature Ecology & Evolution" elmi jurnalında dərc edilən araşdırmada, elm adamlarının nəsli kəsilməkdə olan dəniz tısbağalarını araşdırmaq üçün qumdan ətraf mühitin DNT nümunələrini toplayarkən, tapıntıların çox keyfiyyətli olduğu və həmin bölgədə yaşayan əhalinin genetik əcdadı müəyyən edilə biləcəyini müəyyənləşdiriblər. Tədqiqat çərçivəsində 6 nəfərin çalışdığı 280 kvadratmetrlik heyvan klinikasından götürülən hava nümunələrinin tədqiqində işçi heyətin və heyvanların DNT-lərinin aşkar edilərək uyğunlaşdırıla bildiyi müşahidə edilib. Tədqiqatda deyilir: "Tüpürcəyimiz, dərimiz, tərimiz və qanımız vasitəsilə ətraf mühitə daxil olan insan DNT-si itkin düşmüş şəxslərin tapılması və cinayətlərin açılması, arxeoloji əhəmiyyət kəsb edən ərazilərin müəyyən edilməsi və sağlamlığın monitorinqi üçün məhkəmə-tibbi araşdırmalara kömək etmək üçün istifadə edilə bilər" hesabatda deyilir. Florida Vəhşi Təbiət Xəstəlikləri Universitetinin Genomika professoru Devid Daffi, "Bütün bu şəxsi, əcdad və sağlamlıq məlumatları ətraf mühitdə sərbəst şəkildə mövcuddur və hazırda havada asılır", - deyə bildirib. Hesabatda eyni üsulların "məxfiliyin pozulması, yerin izlənilməsi, məlumatların toplanması, fərdlərin və ya populyasiyaların genetik izlənməsi" kimi zərərli işlərin də asanlaşdıra biləcəyi təhlükəsinə işarə edilib.

**Turan**

## İlk pilotsuz avtobuslar xəttə buraxılıb

Avtobuslarda iki nəfərdən ibarət ekipaj üzvü çalışır




**Şotlandiyada sərnişin daşımalarını həyata keçirəcək ilk pilotsuz avtobuslar marşruta buraxılıb.**

BBC xəbər verir ki, həmin avtobuslarda iki nəfərdən ibarət ekipaj üzvü çalışır. Onlardan biri yola və göstəricilərə nəzarət edir, digəri isə bilet satır və sərnişinlərə yardım göstərir. Şotlandiyanın paytaxtı Edinburqla Firth of Forth körfəzinin digər tərəfində yerləşən Fife dairəsi arasındakı 21 kilometrlik marşrut üzrə saatda 75 kilometrədək sürətlə hərəkət edən beş pilotsuz avtobus həftədə 10 min sərnişinə xidmət göstərəcək. O, ölkədə hökumət tərəfindən maliyyələşən və rəsmən qeydiyyatdan keçən ilk pilotsuz marşrut kimi tarixə düşüb.